Qədim Müqəddəs Yazılardan

# Yaradılış Kitabı
# üzrə Dərslər

Bu kitabı şəxsi istifadə üçün çap etmək istəyirsinizmi?
Yaxud istifadə etmək üçün cihazınıza endirmək istəyirsinizmi?

Bu dərslərin hamısını azərbaycan dilində və digər dillərdə **www.learnhisways.com** saytından pulsuz endirə bilərsiniz.

Bütün kəlamlar MÜQƏDDƏS KİTAB-dan gürtürülmüşdür.
© MÜQƏDDƏS KİTAB (Əhdi-Ətiq və Əhti-Cədid)
Əhti-Ətiq © MKŞ 2004, 2006, 2009 (təkrar yoxlanılmış)
Əhti-Cədid © MKŞ 2009 (yeni tərcümə)

Translated from the English
*Exploring the Ancient Book of* ***Genesis***

© 2014 Life Resources

***Ey Xudavəndimiz Rəbb, İsmin bütün yer üzərində nə qədər əzəmətlidir! Ehtişamın göylərə qalxır!***

***Əllərinin işi olan göyləri, Öz yerinə düzdüyün ay və ulduzları gördükdə deyirəm:***

***"İnsan kimdir ki, onun haqqında düşünürsən? Bəşər oğlu kimdir ki, onun qayğısını çəkirsən?"***

***Onu Allahdan bir az aşağı yaratdın, İzzət və əzəmət tacını onun başına qoydun..."***

***Məzmur 8:1&3-5***

# Mündəricat


Yaradılış Kitabı İmanımızın Möhkəm və Sağlam Təməlini Qoyan Kitab....6

Bu Dərslərdən Təklikdə Və Ya Qrupda Necə İstifadə Edilməli?......8

1. Yaradılış....11
*Yaradılış 1-2*

2. İnsanın Günaha Batması....16
*Yaradılış 3*

3. Yer Üzündə Günah Çoxalır....20
*Yaradılış 4-10*

4. Babil Qülləsi....25
*Yaradılış 11*

5. İbrahim: Allahın Dəvəti Və Əhdi....29
*Yaradılış 12-15*

6. İbrahim: İsmailin Və İshaqın Doğulması....36
*Yaradılış 16-21*

7. Sodom Və Homorranın Məhv Olması....40
*Yaradılış 18:16-33 və 19:1-29*

8. İbrahimin Sınanması....44
*Yaradılış 22-25*

9. Yaqub: Seçilmiş Və Allahdan Xeyir-Dua Almış Adam....48
*1-ci hissə, Yaradılış 25-28*

10. Yaqub: Seçilmiş Və Allahdan Xeyir-Dua Almış Adam....52
*2-ci hissə, Yaradılış 29-35*

11. Yusif: İman Edən Və Bağışlayan Adam....56
*1-ci hissə, Yaradılış 37 və 39:1-6*

12. Yusif: İman Edən Və Bağışlayan Adam....59
*2-ci hissə, Yaradılış 39:7-41:57*

13. Yusif: İman Edən Və Bağışlayan Adam....64
*3-cü hissə, Yaradılış 42-50*

14. Dünyanın Yaranmasından Yusifə Qədər Yaradılış Kitabına Ümumi Baxış....70
*Yaradılış 1-50*

Əlavə Dərslər....75

# Yaradılış Kitabı
# İmanımızın Möhkəm və Sağlam Təməlini Qoyan Kitab

Yaradılış Kitabını oxuyan hər kəs bunun heyranedici bir Kitab olduğunu anlayar. Dünyamızda həyatın yaranmasından bəhs edən bu Kitab haradan gəldiyimizi anlamağımıza kömək edir və ümumiyyətlə insanın, Allahın surətində yarandığına görə Allahla xüsusi əlaqəsi olduğunu göstərir.

Yaradılış Kitabının başlanğıcındakı gözəllik oxucunu valeh edir. Lakin tezliklə dünyada günahın başlanması və artması haqqında oxuyuruq. Günahın ayrı-ayrı insanları, ailələri və xalqları məhv etdiyini görürük. Bir çox insanların xəbəri yoxdur ki, "Biz niyə bu dünyadayıq?" və "Bu dünya niyə belədir?" kimi çoxlu suallarımızın cavablarını Yaradılış Kitabında tapmaq mümkündür. Bu Kitab həmçinin həyatımıza sabitlik verən çox mühüm bir həqiqətə gözlərimizi açır. Bəhsi keçən həqiqət odur ki, hər şeyi yaradan Allah var və günahın hər şeyi məhv etməsinə baxmayaraq, Allah yaxşı niyyətlərini həyata keçirməyə davam edir. Allah günaha nifrət edir, günahı mühakimə edir. Lakin Allahın bu dünyanı xilas etmək, dünyaya xeyir-dua vermək planı və niyyəti vardır. Onun bu planını biz də öyrənməliyik.

Öz qədim tariximiz, ilk əcdadlarımız barədə məlumatımız yoxdursa, yaxud Allahı həqiqətən olduğu kimi dərk etmiriksə, fəzada məqsədsiz, istiqamətsiz uçan bir kosmik gəmiyə bənzərik. Kökü dərin olmayan yekə bir ağaca bənzərik – güclü külək bu ağacı asanlıqla yıxa bilər. Lakin Allah Onun həqiqətən necə olduğundan xəbərsiz olmağımızı, bu dünyada baş verən hadisələrin mənasını anlamamağımızı istəmir. Biz Yaradılış Kitabını açıb oxuduqca zehnimiz və ürəyimiz get-gedə nurla və ümidlə dolur.

Yaradılış Kitabında Allahın Öz xüsusi niyyətləri üçün çağırdığı Adəm, Nuh, İbrahim, Yaqub, Yusif və başqa imanlı insanlar haqqında öyrənirik. Onlar kamil insanlar idi? Xeyr. Müqəddəs Kitabın səhifələrində bu imanlı kişilər və qadınlar həqiqətən olduqları kimi təsvir olunub. Onlar bizim kimi insan idi. Bununla belə, Rəbbin yolunda mükəmməl yaşamadıqları və bir çox sınaqlara düşdükləri halda, bu imanlıların həyatına xeyir-dua gəlirdi. Allah onların vasitəsilə bir millət formalaşdırmağa başladı. Məhz bu millətdən – İsrail xalqından Xilaskar Məsih gəlmişdir.

Bu dərslər, görəcəyiniz kimi, İsanın ardıcılları üçün nəzərdə tutulmuşdur. Lakin məsihçi olmayan, amma həqiqəti axtaran insanlar da bu dərslərdən xeyli faydalana bilərlər. İbrahimdən 2000 il sonra yaşamış İsa, Yaradılış Kitabını mükəmməl bilirdi və təlim öyrədərkən tez-tez bu Kitaba

istinad edirdi. Ər-arvad münasibətlərindən danışarkən Yaradılış 2-ci fəsildən sitat gətirdi. Nuhdan, İbrahimdən, İshaqdan və Yaqubdan danışdı. İsa Yaradılış Kitabından bir nağıl kimi danışmamışdır. Bu Kitabın bəhs etdiyi insanların və həqiqətlərin gerçək tarixdə var olduqlarını öyrətmişdir. Həqiqi yeganə Allahı tanımaq istəyən hər kəs üçün bu Kitabı bilməyin vacib olduğunu İsanın Özündən öyrənirik. Yaradılış Kitabının məzmunu İsa Məsihin Xoş Xəbəri ilə sıx əlaqəlidir. Buna görə biz Yaradılış Kitabının İncildəki xilasımızla əlaqəsini göstərmək üçün bəzi yerlərdə Əhdi-Cədidə də müraciət edəcəyik. Xilası nə qədər yaxşı dərk etsək, həyatımız o qədər yaxşı olacaq.

Bu dərslərdə Allah sizə bol-bol xeyir-dua versin.

# Bu Dərslərdən Təklikdə Və Ya Qrupda Necə İstifadə Edilməli?

Bu dərslər, başlanğıc dövrümüzün geniş mənzərəsini əks etdirən Yaradılış Kitabını ümumi şəkildə öyrənmək üçün nəzərdə tutulmuşdur. Buna görə bəzi hissələrini təfsilatla öyrənmədən keçəcəyik. Ola bilsin, siz o hissələri təkrar oxumaq, daha geniş araşdırmaq, ibrət dərsi almaq istəyərsiniz.

Görəcəyiniz kimi, bu dərsləri keçən hər kəsdən xeyli çox oxumaq tələb olunacaq. Dərslərdən ən yaxşı şəkildə faydalanmaq üçün **Yaradılış Kitabının 50 fəslinin hamısını başdan sona qədər oxumağınız məsləhət görülür**. Hər dərsin sonunda növbəti dərsdən əvvəl oxumağınız üçün tövsiyə olunan hissələr qeyd ediləcək. Dərsi başlamazdan əvvəl o fəsilləri heç olmasa bir dəfə oxuyacaqsınız. Yadda saxlayın ki, siz Müqəddəs Kitabın özündən öyrənmək istəyirsiniz. Qrupda dərs keçirsinizsə, dərsə gəlməzdən əvvəl müvafiq hissələri oxumağınız, əhvalatları daha tez anlamaqda sizə kömək edəcək. Öyrəndiyiniz fəsillər və ayələrlə nə qədər yaxından tanış olsanız, bu kitabdakı suallardan o qədər çox faydalanacaqsınız.

**Bu kitab xüsusilə Müqəddəs Kitabı öyrənən kiçik qruplar üçün yazılmışdır** və evdə toplaşan cəmiyyətlərin həftəlik toplantılarında, yaxud məbədlərin həftə içində keçirdikləri Müqəddəs Kitab öyrənmə dərslərində köməkçi vəsait olaraq istifadə edilə bilər. Qrupun toplantısında iştirak edən hər kəsin qabağında bu kitabdan keçdiyiniz dərs və Yaradılış Kitabının bu dərsdə öyrəndiyiniz fəslində açılmış Müqəddəs Kitab olmalıdır.

**Müqəddəs Kitabı qrupda öyrənməkdə məqsəd, bir müəllimin qrupa dərs öyrətməsi deyildir.** Əksinə, bunun məqsədi odur ki, hər kəs özü Kitabda həqiqətləri kəşf etməyi öyrənsin. Buna görə, sakitcə qulaq asanlara dərsi vəz edən rəhbər, yaxşı rəhbər deyildir. Yaxşı rəhbər, qrupda iştirak edən adamların ayələri diqqətlə nəzərdən keçirməyinə kömək etmək üçün bu kitabdan istifadə edən rəhbərdir. Belə rəhbər hamının fəal iştirakı üçün şərait yaradır, dərsin hissələrini hamıya növbə ilə oxutdurur və hamını mətndən öyrəndiyini bölüşməsi üçün təşviq edir. Buna görə də hər kəsin qabağında müvafiq dərsin və açılmış Müqəddəs Kitabın olması çox vacibdir. Beləcə hər kəs fəal iştirak edə bilər.

**Bu kitab, Yaradılış Kitabını daha çox diqqətlə oxumağınıza kömək edən bir vəsaitdir.** Bu dərslərdə müxtəlif növ sualları tapacaqsınız:

- Birinci növ suallar, hekayənin mühüm hissələri gözdən qaçmasın deyə qrupun **ayəyə diqqətlə baxması** üçün nəzərdə tutulmuşdur.
- İkinci növ suallar, qrupun **bəzi ayələri dərin düşünməsinə və mənasını müzakirə etməsinə kömək edir.** Yaradılış Kitabı, həyatın mənasını dərk etməyimizə kömək edə biləcək zəngin

məzmuna malik bir kitabdır. Buna görə tez-tez dayanıb, müəllifin bizə nə demək istədiyini düşünmək yaxşı olar. Bir parçanın mənasını düşünməyə kifayət qədər vaxt ayıran bir qrup üçün bu dərslər ruhu doyuran bir ziyafət olacaq!

- Üçüncü növ suallar, qrupda iştirak edənlərin **öyrəndiklərini bu gündən etibarən həyatlarına necə tətbiq edəcəklərini düşünməsinə kömək edir.** Bu sualları keçməyə tələsməyin. Onları müzakirə etməyə kifayət qədər vaxt ayırın. Dua etməyə də vaxt ayırmağı unutmayın. Onda həyatınız yaxşılığa doğru dəyişiləcək.

**Əgər bu dərsləri təklikdə keçirsinizsə**, fikirlərinizi bir dəftərə yazmaqdan faydalana bilərsiniz. Bir qrupla birlikdə oxumayan insanın fikirləri adətən sözlə ifadə edilməmiş qalır. Ancaq təklikdə öyrənərkən fikirlərini yazan insan, düşüncəsini daha açıq şəkildə ifadə edə bilər. Dəftərdəki qeydlərimizi gələcəkdə istədiyimiz vaxt oxuya bilərik. Bu qeydlər başqalarını öyrətmək üçün də faydalı ola bilər.

**QRUP RƏHBƏRLƏRI – Hər bir qrup üzvü üçün bu dərsləri maraqlı etmək məqsədilə aşağıda bəzi qaydalar verilmişdir:**

- **Dərsinizə hazırlaşmazdan əvvəl Müqəddəs Ruhun sizin müəlliminiz olması üçün dua edin.** Ondan sizə rəhbərlik etməsini və grupla bölüşmək üçün sizə müdriklik və qavrayış verməsini xahış edin.
- **Qrup rəhbəri kimi, qrupla görüşməzdən əvvəl, bölüşəcəyiniz Kəlam hissəsini və sualları təklikdə oxuyun.** Siz özünüz dərslə əvvəlcədən tanış olsanız, qrup üzvlərinə kömək etmək üçün daha yaxşı hazırlaşmış olacaqsınız.
- **Qrup dərsinizi dua ilə başlayın. Allahın sizinlə olub Kəlamını anlamağa və riayət etməyə kömək edəcəyinə inanın.**
- **Bu dərslərin ən vacib hissəsi Müqəddəs Kitabdan götürülən Kəlamlardır.** Bir qrup olaraq, təyin edilmiş Kəlamların ən azından bir dəfə oxuyun.
- **Cavab verməzdən əvvəl qrup üzvlərinin bəndləri diqqətlə oxuduğundan əmin olun.** Dərslər bizim Müqəddəs Kitabın nə dediyini fərz etməyimiz üçün deyil, Onun əslində nə öyrətdiyini aydınlaşdırmaq üçün hazırlanmışdır.
- **Qrupun üzvlərinin sualların hamısına bir-bir cavab verməsini təmin edin.** Bəzən hər bir nömrə altında 3-4 sual ola bilər. Bütün sualların hamısını birdən oxumayın. Növbəti nömrəyə keçməmişdən əvvəl hər bir sualı cavablandırın.
- **Bu dərslər bütün dərs boyu bir nəfərin təbliğ etməyi və ya öyrətməyi üçün deyil, qrup şəklində müzakirə etmək üçün**

**nəzərdə tutulmuşdur.** Əgər qrup böyükdürsə, vaxt məhdudiyyəti səbəbindən hamının bir-bir suallara cavab verməyə imkanı olmaya bilər. Buna baxmayaraq, qrupda olan hər bir kəsə bir neçə sual barədə öz fikirlərini bildirməyə imkan yaradın. Müzakirədə hamının iştirak etməsini və heç kimin söz üstünlüyünü əlində saxlamamasına ruhlandırın.

- **Əgər mümkünsə, qrup üzvlərinin bir-birini görə bilməsi üçün dairəvi şəkildə oturun.** Bu sıra ilə düzülmüş stullar və qarşıda yalnız rəhbərin təlim verdiyi "sinif otağı" tərzinə nisbətən daha qeyri-rəsmi bir mühit yaradır. Dairəvi şəkildə oturmaq qrup üzvlərinə müzakirədə daha azad şəkildə iştirak etməyə yardım edəcəkdir.
- **Mümkün olduğu qədər, çalışın ki, hər kəsdə, Müqəddəs Kitab və dərs materialının kopiyası olsun.** Qrup üzvlərini ruhlandırın ki, dərs materialını evə aparıb, yenidən, öz ailə üzvləri və ya dostları ilə keçsinlər.

# Qeyd: Birinci dərsə başlamazdan əvvəl...

**Yaradılış 1-2-ci fəsillərin hamısını oxuyun. Bu dərsləri bir qrupla keçəcəksinizsə, birinci dərsə gəlməzdən əvvəl bu fəsilləri təklikdə oxuyun.**

# 1. Yaradiliş

## *Yaradılış 1-2*

**Müzakirə üçün sual**

Hamımızın Allah haqqında suallarımız var. Sizin Allah və dünya ilə bağlı cavabsız qalan hansı suallarınız var? Sizcə, başlanğıcımız ilə bağlı sualların cavablarını tapmaq mümkündürmü?

**Giriş**

Müqəddəs Kitab bizə kainatın və dünyamızın başlanğıcı haqqında bir çox sirləri açmırsa belə, Yaradılış Kitabının ilk fəsillərini araşdıraraq bəzi mühüm həqiqətləri öyrənə bilərik. Bu ilk dərsdə biz dünyanın və bəşəriyyətin yaradılma tarixçəsini nəzərdən keçirəcəyik.

**Yaradılış 1:1-25-i oxuyun.**

1. Yaradılış 1:1-i təkrar oxuyun.

   Bu, Allahın Müqəddəs Kitabında ən birinci ayədir. Bu ayə bizə hər şeyin necə başlandığını izah edir. Biz bu ayədən yaradılış barədə hansı mühüm həqiqəti öyrənirik? Bu haqda düşünün. Sizcə, niyə bu ayə Müqəddəs Kitabın birinci ayəsidir?

**Allah necə var oldu?**

Çoxumuz gec və ya tez bu sualı veririk. Lakin Yaradılış Kitabı bizə Allahın necə vücuda gəldiyinə dair heç bir məlumat vermir. Müqəddəs Kitabın ilk ayəsində Allah artıq mövcuddur. “Başlanğıcda” dedikdə Onun başlanğıcının deyil, bizim başlanğıcımızın nəzərdə tutulduğu aydındır. Əhdi-Ətiqin və Əhdi-Cədidin heç bir yerində Allah Öz başlanğıcından bəhs etmir, çünki Müqəddəs Kitabın bəzi ayələrində O bizə başlanğıcsız (əzəli) və sonsuz (əbədi) olduğunu bildirir. Bu, dərrakədən üstün bir sirdir.

Allahın sirləri çoxdur, bununla belə biz görürük ki, O bizə Müqəddəs Kitabda Özü və bəşəriyyətin qədim tarixi haqqında çox şey bildirmişdir. Bu biliklər hal-hazırda dünyada baş verən hadisələri daha yaxşı anlamağımıza kömək edir. Biz Yaradanımızın nəzərdə tutduğu kimi necə yaşamaq barəsində həqiqəti öyrənmək istəyirik və bizə öyrətməsi üçün Yaradana ümid bağlayırıq.

2. Bu fəslin 3, 6, 9, 11, 14-cü (və digər) ayələrində hansı sözlər təkrar olunur?

3. Biz Allahın kainatı “Qoy olsun…” sözləri ilə yaratdığını oxuyanda, bu sözlər ürəyimizə güclü təsir göstərir. Allahın sözlə, kəlamla yaratdığını görürük!

   Bir düşünün ki, bu böyük dünyamız, çox isti günəşimiz, milyonlarla ulduzlardan ibarət olan əzəmətli qalaktikalar təkcə Allahın “Qoy olsun…” sözləri ilə yaranmışdır. Bu sizə necə təsir göstərir?

4. Fəslin 4, 10, 12, 18-ci (və digər) ayələrində Allahın yaratdıqları necə təsvir olunur?

**Qədim sivilizasiyaların allahları**

Qədim dünyada bir çox millətlərin dünyanın başlanğıcı barədə öz mifləri var idi. Lakin onların allahları haqqında rəvayətləri Yaradılış Kitabında Allah haqqında yazılanlardan xeyli fərqlənir. Onların əfsanəvi allahlarının bəşəri zəiflikləri var idi: aralarında müharibələr, ailə münaqişələri, qısqanclıq, davalar baş verirdi; imkanları məhdud idi və əksər hallarda onlar əxlaqsız idilər. Yaradılış Kitabını oxuyanda isə tamamilə başqa mənzərəni – hər şeyə qadir olan Allahın əzəmətli təsvirini görürük. Allah dünyanı kamil və gözəl şəkildə müəyyən məqsədlə yaradır. Yaradılışın hər gününün sonunda Allah görür ki, "bu, yaxşıdır".

Biz bu gün günahla dolu bir dünyada yaşayırıq. Lakin Yaradılış 1 və 2-ni oxuyanda anlayırıq ki, **həyat pis başlamayıb — yaxşı başlayıb!** Qəlbimizin dərinliyində bilirik ki, bu, belə olmalıdır. Bu fəsilləri oxuyanda yaradılışda **MÖHTƏŞƏM PLANI** görürük və "Allahın bu dünya üçün möhtəşəm planı nədir? Allah bizim və bütün yaradılışı üçün nə istəyir?" – deyə sual veririk.

**Yaradılış 1:26-31-i və 2-ci fəslin tamamını oxuyun.**

5. Bu ayələr Allahın yaratdıqlarının ən əzəmətlisindən bəhs edir. 1:26-31-də kişi ilə qadının yaranması təsvir olunur. Sonra 2:7-də və 2:15-25-də onların yaranması daha təfərrüatla nəql edilir.

   Sizcə, “Öz surətində yaratdı” nə deməkdir? (Yaradılış 1:26-27) Aşağıdakıları oxumazdan əvvəl öz fikrinizi bölüşün

**Niyə insan xüsusidir?**

Allah kainatı yaradanda, hər şeyi sözlə yaratdı. Ancaq insanı başqa cür yaratdı. Yar. 2:7-ni oxuyun. Allah insanı yaradanda təkcə söz demədi, insanı düzəltdi və burnuna Öz nəfəsini üfürdü. Bu onu göstərir ki, insan Allahın yaratdığı bütün digər varlıqlardan daha çox öz üzərində Allahın izini daşıyır.

Bəzi insanlar deyirlər ki, biz sadəcə olaraq başqa heyvanlardan ağıllı heyvanıq. Lakin Yaradılış Kitabına görə biz heyvan deyilik. Müqəddəs Kitabda Allahın surətində yarandığı söylənən başqa bir varlıq yoxdur. Allah varlığımızın içinə Yaradanla münasibət qurmağı arzulayan ruh qoydu. Biz Allah kimi düşünürük, mühakimə yürüdürük, emosiyalar hiss edirik, yaradırıq, iradəmizlə qərar veririk, bir-birimizlə və Allahla danışırıq. Həyat Allahdandır və son dərəcə qiymətlidir. Məhz buna görə bizə yaxın bir insan öləndə ürəyimiz böyük sıxıntı çəkir. Bu bizə həmçinin Allahın niyə Öz Oğlunu qurban verməyə razı olduğunu izah edə bilər. Allah bizi çox qiymətləndirir və əbədi olaraq Onunla yaşamağımızı istəyir.

6. Diqqət yetirin ki, 1:26-da Allah deyir: "Öz surətimizə və bənzərimizə görə insanı yaradaq..." Sizcə, Allah bu sözü deyəndə kimə müraciət edirdi? Fikirlərinizi bölüşün, sonra aşağıdakıları oxuyun.

**Allah kiminlə danışırdı?**

Yaradılış Kitabının müəllifi bu sualın cavabını verməyib. Ancaq Allahın ona bildirdiyini çatdırıb: Allah demişdir ki, "Öz surətimizə... görə insanı yaradaq." Lakin Əhdi-Cədiddə bunu anlamağımıza kömək edən maraqlı bir yer vardır. İsa Məsihin ən yaxın şagirdlərindən biri Yəhya qələmə aldığı Müjdə Kitabında “Allahın Kəlamı” haqqında bəzi həqiqətləri izah edir.

**Yəhya 1:1-5-i oxuyun.** Bu ayələr Kəlam haqqında nə öyrədir? 1-3-cü ayələri öz sözlərinizlə necə izah edərdiniz? (Yəhyanın “Kəlam” dedikdə İsanı nəzərdə tutduğunu anlamaq üçün sizə 14-18-ci ayələri də oxumaq lazım ola bilər).

7. İndi Yaradılış Kitabının 2-ci fəslinə qayıdaq və 1-3-cü ayələri təkrar oxuyaq. Allah yeddinci gündə nə etdi?

Yeşaya 40:28-də Allahın heç vaxt yorulmadığı deyilir. Sizcə, niyə Allah yeddinci gündə istirahət etdi?

Sizcə, indiki dövrdə də insanlara həftədə bir gün istirahət etmək lazımdırmı?

8. Yaradılış Kitabının 1 və 2-ci fəsillərində Allahın kişi ilə qadına verdiyi bol xeyir-duaları təsvir olunur. Bunlardan bəzisi aşağıdakılardır:

- Allah onları bol qida ilə təmin etmişdi. (Yaradılış 1:29)
- Allah onlara məqsəd və mənalı iş vermişdi. (1:28 və 2:15)
- Allah kişiyə bir dost və köməkçi olaraq qadını vermişdi. (2:18 – 24)
- Allah onları uşaq kimi məsum yaratmışdı; onlar bir-biri qarşısında çılpaq idilər və bundan utanmırdılar. (2:25)
- Ən vacibi o idi ki, kişinin və qadının Allahla münasibəti var idi. Allah onlarla söhbət edir, onların qeydinə qalır, onlar üçün ən yaxşısını arzu edirdi. (1:28-29 və 3:8-9)

Günah dünyaya daxil olmazdan əvvəl həyat sadə, xoşbəxt və Allahın xeyir-duası ilə dolu idi. Yuxarıdakı 5 xeyir-duanı təkrar gözdən keçirin. Niyə bu məsum, günahsız dünyanın təsviri bizə o qədər xoş gəlir? Fikirlərinizi qrupla bölüşün.

**Bəs təkamül necə?**

Yaradılış Kitabının ilk fəsillərini oxuyarkən, dünyanın necə yaradıldığı barədə ağlınıza çoxlu fikirlər gələ bilər. Bu fəsillərdə çox şey bildirilmir, ona görə biz ehtiyatlı olmalıyıq, Yaradılış Kitabına hər detalı izah edən bir elmi kitab kimi yanaşmamalıyıq. Bununla belə, elm də bizə yer kürəsinin yaranması haqqındakı bütün sualların cavablarını verməyə qadir deyildir. Hal-hazırda Darvinin nəzəriyyəsinə şübhə ilə yanaşan, bu nəzəriyyənin yer üzündəki həyatın yaranmasına dair qaneedici izahat vermədiyini söyləyən çox alim vardır. Bəlkə də ateistlər sizə öyrədiblər ki, dünyada hər şey öz-özündən təkamül edib. Sağlam düşüncənizə güvənməkdən qorxmayın. Kainatın hər yerində Yaradanın mövcud olduğuna dair sübutlar vardır. Ətrafınızdakı dünyaya və göylərə baxanda gördüyünüz bəzi sübutları bir neçə dəqiqə ərzində müzakirə edin. Bədəninizin: əllərinizin, ağlınızın, gözlərinizin heyranedici quruluşundan danışmağı da unutmayın!

9. Müqəddəs Kitab bizə dünyanın yaradılışı haqqında hər şeyi anlatmasa da, Yaradılış Kitabının müəllifi 1 və 2-ci fəsillərdə bizə bəzi mühüm məlumatları verməyə çalışır:
   - **Hər şeyi Allah yaratdı**
   - **Allah hər şeyi çox yaxşı yaratdı**
   - **Allah bizi Öz surətində yaratdı**

   Biz Yaradılış Kitabını öyrənməyə başlayarkən, təkcə qadir Allahı deyil, yaratdıqlarına qayğı göstərən sevən Yaradanı bu başdan görməyimiz çox vacibdir. Yaradılış Kitabını oxumağa davam etdikcə, növbəti fəsillərdə bunu daha çox görəcəyik.

## *Bu bizim üçün nə məna daşıyır?*

**Tətbiq və Dua**

**Zəbur 100:3-ü** bir neçə dəfə oxuyun.

1) Kainatı Yaradanın sizi də yaratdığını və sizin Ona məxsus olduğunuzu nə qədər tez-tez düşünürsünüz?

**Zəbur 139:13-18-i oxuyun.**

2) Yaradanımızın bütün yaratdıqları üçün gözəl planı olduğunu həmişə yadda saxlasaq, düşüncəmiz və hərəkətlərimiz necə dəyişəcək?
3) İndi uca Yaradanımıza səcdə etməyə bir az vaxt ayırın. Sizin qayğınıza qaldığına görə Ona şükür edin.

## Növbəti dərsdən əvvəl Yaradılış 3-cü fəslini başdan sona qədər oxuyun.

# 2. İNSANIN GÜNAHA BATMASI

## *Yaradılış 3*

**Müzakirə üçün sual**

Əvvəlki dərsimizdən Allahın dünyanı yaratması haqqında nə yadınızda qalıb? İnsanın yaranması digər məxluqların yaranmasından necə fərqlənir?

**Giriş**

Əvvəlki dərsimizdə Allahın dünyanı gözəl və kamil yaratdığını gördük. Lakin bu gün dünyaya baxanda xəstəlik və ölüm, nifrət və zorakılıq, paxıllıq, qəzəb və ədavət kimi heç də yaxşı olmayan çox şeyi görürük. Nə baş verib? Bu dərsdə günahın ilk dəfə Allahın yaratdıqlarına necə daxil olduğunu öyrənəcəyik. 3-cü fəsli oxumağa başlamazdan əvvəl əhvalatı başa düşmək üçün 2-ci fəsildən bir neçə ayəni təkrar nəzərdən keçirək.

**Yaradılış 2:8-9 və 15-17-ni oxuyun.**

1. 9-cu ayəni bir daha diqqətlə oxuyun. Allahın bağın ortasında bitirdiyi iki xüsusi ağacın adları nədir?
2. 16-17-ci ayələrdə Rəbb insana nəyi yeyə bildiyini söylədi? Bəs nəyi qadağan etdi? İnsan itaətsiz olub o ağacın meyvəsindən yesə, Rəbbin dediyinə görə, nə baş verəcək?

   Diqqət yetirin ki, Rəbb Adəmlə Həvvaya bol xeyir-dua vermişdi, onlar üçün bəlkə də minlərlə meyvə ağacları yetirmişdi, onlar o ağacların meyvələrindən yeyib Rəbbin xeyirxahlığından zövq ala bilərdilər. Bəzən biz də əlimizdə olmayan bir şeyi çox düşünürük və Allahın bizə bu həyatda verdiyi gözəl nemətlərinin hamısını gözdən qaçırırıq. Buna bir misal gətirə bilərsinizmi?

İndi görək, günah bu gözəl mənzərəni necə məhv etmişdir.

**Yaradılış 3-ün hamısını oxuyun.**

3. İlanın hiyləgərliyinə və qadını necə yoldan çıxartdığına diqqət yetirin:
   - Onun hansı sözləri qadının zehninə şübhə toxumu səpir? (1-ci ayə)
   - Allah o ağacın meyvəsindən yesələr öləcəklərini söyləmişdi. Bəs ilan Həvvanın itaətsiz olduğu təqdirdə bunun qorxunc nəticəsi olacağı barədə Allahla razılaşır mı? (4-cü ayə)

- İlan qadının zehninə Allahın onu və Adəmi sevməsi, qayğılarına qalması haqqında necə şübhə toxumu səpir? (5-ci ayə)

İblisin bizi sınağa çəkməsi Həvvanı sınağa çəkməsinə oxşayırmı? Necə oxşayır? (Bu sualın cavabını vermək üçün 1 və 4-5-ci ayələrə təkrar baxın.)

4. Adəmlə Həvvanın günahının nəticələrinə nəzər salaq. Aşağıdakı ayələrin hər birini oxuyun:
   - 7-ci ayə: utanma
   - 8 və 9-cu ayələr: Allahdan gizlənmə, hüzurundan qorxma
   - 12 və 13-cü ayələr: başqasını günahlandırma

   Siz bunları yaşamısınızmı? Hamımızın günah etdiyimiz vaxt yuxarıdakı nəticələri necə yaşadığımızı izah edin.
5. Yaradılış 1 və 2 Allahın yaradılışındakı bol gözəllikdən, sülh və xeyir-duadan bəhs edir. 3-cü fəslin 14-19-cu ayələrində təsvir olunan bütün lənətləri sadalayın.
6. Daha bir lənət var. Yaradılış 3:22-24-ü oxuyun. Adəm və Həvva üçün həyat ağacı qadağan olundu. Onlar o gün cismən ölməsələr belə, ruhən öldülər. Allahla sıx ünsiyyətləri pozuldu. Ruhani həyatları məhv oldu. Bu lənət nə mənada ən pis lənət olmuşdur?

**İlk günah bu gün hər birimizə necə təsir edir?**

Əgər biz özümüzü Allahdan ayrı düşmüş günahkarlar olarak görməsək, Adəmin günahının bizə olan təsirini çətin görərik. Əhdi-Cədiddə həvari Paul Romalılara Məktubunda bunu bizim üçün aydınlaşdırır. İndi **Romalılara 5:12-19-u** oxumağa vaxt ayırın.

İstər ruhani, istərsə fiziki ölüm Adəmdən başlandı və bütün bəşəriyyətdə davam etdi, günahda hər kəs iştirak etdi. Biz Adəm vasitəsilə həlak olduğumuzu dərk etməsək, Məsihə olan ehtiyacımızı da görə bilməyəcəyik və İsanın bizə görə çarmıxda ölməsi bizim üçün mənasız olacaq. Romalılara 5 bizə həqiqəti göstərir ki, hamımız Adəmin nəsli olaraq günahlı təbiətini irs almışıq.

Bizə yenidən doğulmaq – ruhən doğulmaq lazımdır. Birinci insan Adəm vasitəsilə düçar olduğumuz lənətdən xilas olmaq üçün Məsihdə doğulmalıyıq.

7. Müqəddəs Kitab peyğəmbərlik sözləriylə doludur. Ən birinci peyğəmbərlik Yaradılış Kitabının 3-cü fəslində tapılır. Allah gələcəkdə olacaq bir iş haqqında ilana peyğəmbərlik edir. Bu sirli peyğəmbərlikdə ilana gələcəkdə məhv olacağı bildirilir.

   Yaradılış 3:15-i oxuyun. İlanı kim vuracaq? Sizcə, bunun mənası nədir?

8. Allah Adəmlə Həvvaya həyat ağacından yeməyi qadağan etsə də, onları tərk etmədi və həlak etmədi. Allah hələ onların qayğısına qalırdı. Diqqət yetirin ki, Allah onlara paltar geyindirdi, çünki onlar çılpaq hallarından artıq utanırdılar. Allah onları necə geyindirdi? (21-ci ayə)

**Allah Adəmlə Həvvanın ayıbını örtmək üçün niyə heyvan öldürdü?**

Adəmlə Həvvanın ayıbını örtmək üçün heyvanın öldürüldüyünə diqqət yetirmək vacibdir. Bu, tarixdə ilk heyvanın qurban kəsilməsi idi. Qurbanın səbəbi günah idi. Fikir verin, qurbanı kəsən Adəmlə Həvva deyil idi. Onlar günahkarlıq və xəcalət hissi ilə Allahdan qorxdular və gizləndilər. Lakin Allah Özü onlar üçün bir qurban hazırladı. Günahlarının ayıbını örtdü.

Allahın Adəmlə Həvvanın ayıbını örtmək üçün qurban kəsməsi xilasın tarixi və mənası baxımından çox mühüm faktdır. Əhdi-Ətiqdə İbranilərə Məktubun müəllifi **“...qan axıdılmadan bağışlanma olmur” (İbranilərə 9:22**) deyir. Bu mühüm mövzu Əhdi-Ətiq və Əhdi-Cədid boyunca davam etdirilir. Əhdi-Cədiddə görürük ki, İsa bəşəriyyətin ayıbını əbədi olaraq örtmək məqsədilə Öz qanını tökmüşdür.

İndi Yeremya peyğəmbərin Adəmlə Həvvadan minlərlə il sonra dediyini nəzərdən keçirək. Yeremya bəşəriyyətin günahkarlığı haqqında dərin düşünürdü. Bağdakı günah böyümüş, yer üzünü doldurmuşdu. Lakin Yeremya günahın sadəcə görünən hərəkətdən ibarət olmadığını bilirdi. Həvva ilahın yalanına inanıb, meyvəni yemişdi. Ürəyinin arzuları korlanmışdı. Bütün insanların ürəklərinin pisliklə dolmuş olduğunu bilən Yeremya məyus halda yazırdı: “İnsan ürəyi hər şeydən hiyləgərdir, çarəsi yoxdur. Onu kim başa düşə bilər?” (Yeremya 17:9). Yeremya öz ürəyinin də hiyləgər olduğunu bilirdi və bu ayə göstərir ki, peyğəmbər öz ürəyinə baxanda kədərlənirdi.

Ancaq bir neçə ayədən sonra (Yeremya 17:14) o belə deyir: “Ya Rəbb, mənə şəfa versən, mən sağalaram. Məni xilas etsən, mən xilas olaram.

Çünki həmd etdiyim Sənsən". Yeremya bilirdi ki, özünə deyil, xilas üçün yeganə ümidi olan Allaha baxmalıdır. Bilirdi ki, Allah ona şəfa versə, onu xilas etsə, hər şey yaxşı olacaq. O, imanla yalnız Allaha baxırdı.

## *Bu bizim üçün nə məna daşıyır?*

### Tətbiq və dua

**1 Yəhya 1-ci fəsli oxuyun.** (Diqqət: Yəhya Müjdəsi deyil, Yəhyanın 1-ci Məktubu.)

1) 1 Yəhya 1:7-9 nurda gəzməkdən və günahlarımızı etiraf etməkdən bəhs edir. Günah edəndə Allahın nuruna gəlib günahlarımızı etiraf etməmizin Adəmlə Həvvanın günaha batandan sonrakı hərəkətindən necə fərqləndiyini izah edin. (Yuxarıdakı 4-cü suala baxın)
2) Hər imanlının günah etdiyini dərk edəndə özünü alçaltması və İsanın onu bağışlamasına ümid bağlaması niyə vacibdir?
3) Bu dərsi dua ilə sona yetirin. Sizə və yığışdığınız imanlılara nurda gəzən insanlar olmaqda kömək etməsini Rəbdən diləyin. İsa ilə ünsiyyətinizə mane olan hər şeyi sakitcə ürəyinizdə Rəbbə etiraf edin. Günahınızı tamamilə aradan götürdüyünə və sizi Öz nəzərində pak etdiyinə görə Rəbbə şükür edin.

## Növbəti dərsdən əvvəl Yaradılış 4-10-cu fəsilləri oxuyun.

**Gündə bir fəsil oxusanız, bir həftədə hamısını oxuyub qurtara bilərsiniz. Hamısını oxuya bilməsəniz, heç olmasa Yaradılış 4:1-12-ni, 5-ci fəsildən ancaq 5:1-5-i və 5:21-24-ü, (o vaxt insanların nə qədər uzun ömür sürdüklərini öynənmək sizə maraqlı olar!) 6 və 7-ci fəsillərin hamısını və 9:7-17-ni oxuyun.**

# 3. Yer Üzündə Günah Çoxalır

## *Yaradılış 4-10*

**Müzakirə üçün sual**

Yaradılış 1-3-cü fəsillərdəki hadisələri qısaca təkrar edin. Allahın dünyanı yaratması ilə bağlı hansı məqamlar yadınızda qalıb?

Kişi ilə qadının itaətsizliyi Allahın gözəl yaratdıqlarını necə pozmuşdur? Allah onların ayıblarını örtmək üçün nə etdi? Bu, Allahın bütün bəşəriyyətin günahını aradan götürmək və ayıbını örtmək üçün edəcəyi işə necə işarə edirdi?

**Giriş**

Birinci dərsimiz Allahın yaratdıqlarının gözəlliyini göstərmişdir. Kişi və qadın Allahın surətində yaranmışlar. Lakin günaha batdıqları vaxt xəcalətə və lənətə düçar olmuşlar. Həyat ağacından uzaqlaşdırılmışlar. Bu dərsdə biz bu iki nəfərin günahının bütün nəsillərinə necə təsir etməyə başladığını öyrənəcəyik.

**Yaradılış 4:1-12-ni oxuyun.**

1. 6-7-ci ayələrdə Allah Qabilə nə xəbərdarlıq etdi?

   Qabil bu xəbərdarlığa qulaq asmadığı üçün nə baş verdi? (8-ci ayə)

   Allahın Ruhu bizə ürəyimizdəki səhv fikirlərimizi göstərəndə niyə biz Ona diqqət verməliyik?

2. 9-cu ayədə Allah Qabilə nə sual verdi?

   Qabil Allahın sualına cavabən nə dedi?

   Sizcə, Qabilin 9-cu ayədə verdiyi sualın cavabı nədir? Biz qardaşlarımızın keşikçisiyikmi?

   İnsanların başqalarının ehtiyaclarına əhəmiyyət verməyi bir cəmiyyət necə olur?

**Yaradılış 5:1-5-i və eləcə də 21-24-cü ayələri və 32-ci ayəni oxuyun.**

3. Yaradılış 5-ci fəsil Adəmdən Nuha və oğullarına qədər olan nəsillərdən bəhs edir. 1-2-ci ayələrdə insanın yaranması ilə bağlı hansı 3 mühüm həqiqəti görürük?

**Adəm və Həvva həqiqi şəxsiyyətlər olublarmı?**

Bəziləri deyirlər ki, Adəm və Həvva sadəcə olaraq əfsanəvi şəxsiyyətlər olublar. Lakin Yaradılış 5-ci fəsildə biz Adəmlə Həvvanın və nəsillərinin yer üzündə yaşamış tarixi şəxsiyyətlər olduqlarını görürük. Adəmin digər oğulları və qızları da olub, amma Yaradılış Kitabının müəllifi burada dəqiq qeyd edir ki, Nuh Adəmin oğlu Şetin nəslindən gəlmişdi. Əhdi-Ətiq və Əhdi-Cədidin digər yerlərində bu nəslin İbrahim və Davuddan keçərək İsa Məsihə uzandığı göstərilir. (Misal üçün, baxın: Yaradılış 11:10-26; Matta 1:1-17; Luka 3:23-37.) Əfsanəvi şəxsiyyətlərin dünyada yaşayan həqiqi nəsilləri olmur. Yaradılış Kitab bizə insanın başlanğıcı və günahın başlanğıcının gerçək tarixini anlamaqda kömək edir.

4. Yaradılış 5:22-24-ə baxın. Başqa insanlardan bəhs edən bütün ayələr "öldü" sözü ilə qurtarır. Diqqət yetirin ki, Xanokun tarixçəsi başqalarının tarixçələrindən xeyli fərqlənir.

   Sizcə, Xanok “Allahla bir yol getdi. Sonra qeyb oldu, çünki Allah onu Öz yanına götürdü” (24-cü ayə) ayəsi nə mənaya gəlir?

   Öz həyatınızı düşünün. Allahla daha sıx ünsiyyətdə yaşamağı arzu edirsinizmi? Arzularınızı izah edin.

**Yaradılış 6:5-8-i oxuyun.**

5. İnsanların şəri çoxalır. 5-ci ayədə insanın fikirləri barədə nə yazılıb?

   Cəmiyyətdəki insanlar 5-ci ayədə yazıldığı kimi “hər zaman” pisliyi düşünsələr, cəmiyyətdə sabitlik və sülh olacaqmı? Cavabınızı izah edin.

6. 6-cı ayəni təkrar oxuyun. Bu ayədə insanların şərinə qarşı Allahın ürəyində nə hiss etdiyini Müqəddəs Kitabda ilk dəfə oxuyuruq. Siz keçmişdə Allahın dünyada işlənən günahlara görə ürəyində kədərləndiyini düşünmüsünüzmü? Fikrinizi izah edin.

**Günah haradan gəlib?**

Yaradılış 3-cü fəsli oxuyanda günahın bir başlanğıcı olduğunu görmüşdük. Allah günahkar insanları yaratmayıb. O, Adəmlə Həvvaya azadlığı – Allahı sevmək və yolunu tutmaq azadlığını verib. Eyni zamanda insan Allaha qarşı itaətsiz olmaqda azaddı.

Başlanğıcda insanlar məsum körpələr kimi xoşbəxt idilər. Onlar Allahın məhəbbət yolunu tutduqları zaman dünya gözəl idi. Allaha qarşı itaətsizlik etmələri də təkcə onların özlərinə deyil, bütün dünyaya təsir etdi – dünya get-gedə Allaha, qonşularına xidmət etmək istəməyən, yalnız özlərini düşünən zalım adamlarla doldu. Beləliklə, günahın dünyaya gəldiyi yolun Adəmlə Həvvadan keçdiyini görürük.

**Yaradılış 6:9-22-ni oxuyun.**

7. 8-9-cu ayələrə təkrar baxın. Nuh niyə Rəbbin gözündə lütf tapdı?
8. Heyvanlardan başqa Nuhla birgə gəmiyə minənlər kimlər idi? (18-ci ayə) Allahın Nuha əmr etdiyi hazırlıq işlərindən bəzisini qısaca təsvir edin.

**Yaradılış 7:1-12-ni oxuyun.**

9. Neçə gün ərzində yer üzünə yağış yağdı? (4 və 12-ci ayələri)

**Yardılış 7:22-24-ü oxuyun.**

10. Yer üzündəki canlı varlıqların hamısına nə oldu?
11. Sizcə, Nuhla ailəsi illər uzunu gəmi tikməklə məşğul olandan sonra axırda özləri gəminin içində sağ-salamat qalarkən, suların yer üzünü tutduğunu görəndə özlərini necə hiss etdilər?

**Allah məhəbbətdirsə, niyə Nuhun dövründəki insanları məhv etdi?**

Daşqının əhvalatında Allah bir adamla ailəsindən başqa bütün dünyanı məhv etmək qərarına gəlir. Bəziləri "Allah niyə bu insanların hamısını məhv etdi?" deyə sual verə bilərlər.

Təkrar Yaradılış 6:5-ə baxın. Nuhun zamanında dünya məhkum olunmalı idi. Çünki dünya öz-özünü məhvə aparırdı! Allah dünyanı mühakimə edirsə, bu demək deyil ki, O, dünyanı sevmir. Əslində, Allahın dünyanı məsuliyyətli şəkildə idarə etməsi bizi ruhlandırmalıdır. Müqəddəs Kitabda Allah dəfələrlə ədalətli Hakim olaraq təsvir olunur. (Bax: Zəbur 94:1-15.) Onun qərarları doğru və yaxşıdır. Dünyəvi bir hakim kütləvi qətl törətmiş cinayətkara ömürlük həbs cəzası verəndə cəmiyyət onun daha çox qətl törədə bilməyəcəyinə görə sevinir. Dünyadakı məhkəmələrin ədalətlə hökm çıxarmaq üçün məsuliyyət daşıdığını hamı bilir. İzzətli nizamı ilə dünyanı yaradan Allahın bu dünyada şəri məhkum

edəcək hökmlər çıxarması daha yəqindir. Müqəddəs Kitabı oxuduqca Allahın dünyanı ədalətlə mühakimə etdiyini görürük. Hətta bəzən Allahın hökmlərində yubandığını düşünürük.

Allahın dünyadakı şərə qarşı hökmləri doğrudur. Bununla belə, O bizə insanları mühakimədən xilas etmək istədiyini və yolunu tutanları xilas edəcəyini öyrədir.

*Axır ki, yağış kəsilir və yer qurumağa başlayır. Bir ildən bir az uzun vaxt gəmidə qaldıqdan sonra Nuhla oğulları və gəlinləri bayıra çıxırlar. Nuh Allaha qurbangah düzəldir və onları sağ-salamat saxladığına görə pak heyvanlardan bir neçəsini Allaha şükür qurbanı olaraq təqdim edir. Allah başlanğıcda Adəmlə Həvvaya verdiyi "Törəyib-çoxalın və yer üzünü bürüyün" əmrini Nuha da verir. Sonra Allah Nuhla əhd bağlayır və bütün dünyanı bir daha daşqınla məhv etməyəcəyinə vəd verir. Bu vədin əlaməti göy qurşağı olur. (Yaradılış 9:1-17 )*

*Əgər siz 6-9-cu fəsillərdə Nuhla ailəsinin bütün tarixçəsini oxumamısınızsa, daha sonra tək başınıza oxumağınızı məsləhət görürük.*

**Yaradılış 10-da Nuhun nəslini gözdən keçirin.**

12. Yaradılış 5-ci fəsildə Adəmdən Nuha qədər olan nəsilləri görmüşdük. Yaradılış 10-cu fəsil Nuhun 3 oğlundan törənən nəsillərdən bəhs edir. Bu oğulların adları nə idi? (1-ci ayə)

    Bu oğulların nəsillərindən nə yer üzünə yayılmağa başladı? (32-ci ayələr)

Burada qədim millətlərin başlanğıcını görürük. Hamımız Nuhun bir nəslindən gəlmişik, lakin hansı nəslindən gəldiyini heç kim dəqiq bilmir. Bununla belə, Yaradılış Kitabından qədim tariximizlə bağlı faydalı məlumatları əldə edirik. Ən önəmlisi budur ki, tarixin gedişatında Allahın fəal olduğunu öyrənirik. Qədim zamanlarda olduğu kimi, bu gün də tarix Allah tərəfindən idarə olunur. Sonrakı dərslərdə bunu daha aydın görəcəyik.

## *Bu bizim üçün nə məna daşıyır?*

**Tətbiq və Dua**

**2 Peter 3:3-14-ü oxuyun.**

Əhdi-Cədiddə, Nuhdan minlərlə il keçəndən sonra həvari Peter dünyanın son məhkəməsi haqqında qeyd etdi ki, məhkəmə günü Nuhun zamanındakı tufan kimi qəflətən gələcək.

1) Bu dünyanın məhkəməsinin oğru kimi gələcəyi və heç kəsin ondan qurtara bilməyəcəyi üçün Peter məsihçiləri nə etməyə çağırır? (11-14-cü ayələri təkrar oxuyun.)

2) Ətrafımızda şər artarkən, bu dünyaya uyğunlaşmaq niyə asan olur?

**2 Peter 3:17-18-i oxuyun.**

3) İzah edin, 17-18-ci ayələrin sizin və yığışdığınız imanlılar üçün nə məna daşıyır?

4) Bu dərsi dua ilə sona yetirin, İsanın ikinci gəlişinə hazır olan insanlar olmaq üçün dua edin.

## Növbəti dərsdən əvvəl Yaradılış 11-ci fəslin hamısını oxuyun.

# 4. Babil Qülləsi

## *Yaradılış 11*

**Müzakirə üçün suallar**

Adəmlə Həvva Allaha qarşı itaətsizlik etdikdən sonra günahın bəşəriyyətə necə təsir etməyə başladığını yada salın. Axırda Allah dünyanı necə mühakimə etdi? Onun mühakiməsi nə üçün ədalətli idi? Nuhla ailəsi niyə sağ qaldılar?

**Giriş**

Bu dərsdə Babil adlanan yerdə baş verən hadisələri nəzərdən keçirəcəyik. Günah ayrı-ayrı insanların ürəyində və əməllərində həmişə olur, amma bəzən bütöv cəmiyyət günah və pis niyyət üçün birləşə bilər. Babil qülləsinin əhvalatı bizə bütöv bir cəmiyyətdə qürurun necə arta biləcəyini göstərə bilər.

**Yaradılış 11:1-9-u oxuyun.**

1. 4-cü ayəyə təkrar baxın. İnsanlar ümumi məqsəd ətrafında birləşirlər. Bu ümumi məqsəd nədir?

   İnsanların söhbətlərindən Allahın rəhbərliyi altında birləşmək istədiklərini görürükmü? Onlar heç Allahı düşünürlərmi? Allahın onlardan bir cəmiyyət olaraq nə istədiyini öyrənmək istəyirlərmi?

   4-cü ayədə insana xas olan qüruru görürsünüzmü? Fikrinizi izah edin.

**Babil Qülləsi nə cür qüllə idi?**

Tikdikləri qüllə, böyük ehtimalla, "zikkurat" üslubunda olub. Müasir arxeoloqlar qədim İkiçayarası ərazisində çoxlu zikkurat xarabaları tapıblar. Qədim insanlar inanırdılar ki, belə qüllələr yeri (insanları) göylər (allahlar) ilə birləşdirir. 4-cü ayədə "göylərə çatan bir qüllə" deyə yazılmışdır. Allahdan uzaqlaşdıqca, insanlar özlərinin uydurduqları "allahlara" çatmağa çalışırlar.

Arxeoloqlar zikkurat qüllələrinin allahları dəvət etmək üçün tikildiyini bildirirlər. İnsanlar allahların göydən enib onlara xeyir-dua verməlарini istəyirdilər. Qüllənin üstündə allahlar üçün bir otaq var idi, oradan qüllənin içinə bir pilləkən enirdi. Bütpərəst kahinlər, allahlar pilləkənlə aşağı enməzdən əvvəl bir az qüvvətlənsinlər deyə yuxarı otaqda onlara yemək qoyardılar. Bu ayələrdə açıq deyilməsə də, Babil qülləsinin əhvalatı çox allahlara sitayişin – bütpərəstliyin başlanğıcı ola bilər. İnsanlar Adəmlə

Həvvanın malik olduqları həqiqi Allah haqqındakı biliyi getdikcə itirirdilər. Ola bilsin, bütpərəst dinlər də o vaxt yaranmağa başlayıb.

2. 4-cü ayəni təkrar oxuyun. Allahın Adəmlə Həvvaya verdiyi “Yer üzünü bürüyün...” əmri yadınızdadır? (Yaradılış 1:28) Daşqından sonra Allah Nuhla ailəsinə bu əmri təkrar etmişdir (Yaradılış 9:1). Yaradılış 11:4-də insanlar Allahın istədiyi ilə düz gəlməyən hansı sözlər deyirlər?
3. Rəbbin Adəmə və ondan sonra Nuha yer üzünü bürümək əmrini niyə verdiyini Müqəddəs Kitab izah etmir. Sizcə, Allah niyə insanların bütün yer üzünə yayılmasını istəyirdi?
4. 5-ci ayəni təkrar oxuyun. İnsanlar əvvəl demişdilər ki, tikdikləri qüllə “göylərə çatacaq”. 5-ci ayədə Allahın etdiyi iş necə təsvir olunur? Qüllə həqiqətən göylərə çatdımı?

Bu hekayədə bir az yumor vardır. İnsanlar ad qazanmaq həvəsinə düşüb bəlkə də allahlara çatmaq ümidiylə göylərə çatan bir qüllə tikməyə girişdilər. Allah isə bunu görmək üçün “aşağı endi”! İnsanlar çox kiçik olduqları halda elə bilirlər ki, tikdikləri qüllə nəhəngdir. Lakin kainatı yaradan Allahın nəzərində bu qüllə son dərəcə kiçik qüllədir! Özlərini böyük sayan insanlar qürurlarından kor oldular, allahlar olmadıqlarını görə bilmədilər. Həqiqi Allaha öz gücləri ilə əsla çatmayacaqlar. Allaha çatmaq üçün dini cəhdləri boş və mənasız çıxır.

5. 6 və 7-ci ayələri təkrar oxuyun. İnsanlar bu işdə birləşdilər. Biz adətən insanların birliyinə yaxşı baxırık. Bəs onların birliyi Rəbbə xoş idimi?

   İnsanların birləşməyinin Allahın bu dünya üçün istədiyinə zidd olduğu hallar ağlınıza gəlirmi?

**Birlik həmişə yaxşıdırmı?**

Əgər insanların niyyətləri doğrudursa, Allahın hikməti və məhəbbətinə uyğundursa, birləşmələri yaxşıdır. Amma Allaha və ya ilahi Kəlamına zidd niyyətlər üçün birləşmələrinin (Babildə olduğu kimi) qorxunc nəticələri ola bilər. 4-cü ayədə onların qürur (“ad çıxaraq”) və qorxu (“daha bütün yer üzünə yayılmayaq”) əsasında birləşdiklərini görürük. Müqəddəs Kitab bizə qorxu yaxud qürur ilə idarə olunmamağı öyrədir. Əks təqdirdə bu dünyada

özümüzə və başqalarına çox zərər verə bilərik.

1930-cu və 1940-cı illərdə Adolf Hitler millətinin böyük hissəsini ad qazanmaq məqsədi ətrafında birləşdirməyə müvəffəq oldu. Hitler məğlub edilənə qədər Avropanın çox ölkəsinə və milyonlarla insana zərər vermişdi. Tarix boyunca buna bənzər birləşmələr çox olub – günahkar insanlar Allahın dediyinə məhəl qoymadan öz padşahlıqlarını qurmağa girişirlər. Belə cəmiyyətlər gec və ya tez süquta uğrayırlar.

Yeşaya peyğəmbər vəziyyətimizi belə təsvir etdi: “Hamımız qoyun kimi yolu azmışdıq, hər birimiz öz yolumuzla gedirdik” (Yeşaya 53:6). Dünya öz yolu ilə gedən insanlarla doludur. Xalqlar qeyri-sağlam haldadır və bunun nəticəsində cəmiyyət parçalanır. Allahsız qalan insanların həyatında hər şey alt-üst olur.

6. 8-9-cu ayələri oxuyun. Allah onların dillərini qarışdıranda nələr baş verdi? (iki şey)

   Babil “qarışıqlıq” deməkdir. Onlar bir-biri ilə danışa bilmədiklərinə görə, aralarındakı birlik pozuldu.

**Xalqların yayılmasında Allahın məqsədi nə idi?**

Bəziləri düşünürlər ki, Allah bu yolla cəmiyyətdə günahın sürətlə yayılmasının qarşısını aldı. Allahın qüdrətiylə müxtəlif mədəniyyətlər və dil ailələri əmələ gəldi. İnsanlar bütün dünyaya yayılmağa başladılar. Allah onları səpələyərək günahlarını mühakimə etdi və qürurlu niyyətlərinin həyata keçməsinə mane oldu. Eyni zamanda O, insanların bütün yer üzünə yayılması üçün Öz niyyətini yerinə yetirdi. Əhdi-Cədiddəki Həvarilərin İşləri Kitabında həvari Paulun afinalılara dediyi sözləri oxuyuruq. Onların var olan və bir olan Allahın dünyaya nəzarət etdiyini dərk etmələrini istəyən Paul belə dedi:

**“Allah bütün bəşəriyyətin millətlərini bir insandan yaratdı ki, bütün yer üzərində yaşasınlar. Yaşamaq üçün onlara zaman və məkan təyin etdi ki, Onu axtarsınlar, yəni kor əllərini sürtə-sürtə yol axtardığı kimi axtarıb Onu tapa bilsinlər. Əslində Allah heç birimizdən uzaq deyil.” (Həvarilərin İşləri 17:26-27)**

**Yaradılış 11:27-32-ni oxuyun.**

7. Bu ayələr bizə İbramı (sonradan adı İbrahim oldu) və Sarayı (sonradan adı Sara oldu) təqdim edir. Onlar hansı şəhəri tərk etdilər? (31-ci ayə) Hansı torpağa getdilər? (31-ci ayə)

11-ci fəslin sonunda müəllif diqqətimizi Allahın başladığı yeni bir işə yönəldir (27-32-ci ayələr). Babildə insanın cəhdləri ilə özünü qarışıqlığa apardığını görürük. Növbəti dərsimiz 12-ci fəsildən başlayacaq. Özünü lənətlə damğalamış dünyanı lənətdən xilas etmək üçün Allahın heyrətamiz planının həyata keçməyə başladığını görəcəyik. Bu plan, iman adamı İbrahimin vasitəsilə dünyaya xeyir-dua vermək planıdır.

## *Bu bizim üçün nə məna daşıyır?*

**Tətbiq və Dua**

**Zəbur 115:1-i oxuyun.**

1) Babildəki xalq "ad çıxarmaq" istəmişdi. Yuxarıdakı ayəyə bir daha baxın. Bu ayəyə görə kimin adı şərəfə layiqdir və niyə?

**Filipililərə 2:1-11-i oxuyun.**

2) Bu ayələrdə İsa necə Babildəki xalqın münasibətinin tam əksini nümayiş etdirir?

3) Siz də nümayiş etdirdiyimiz münasibətlər haqqında düşünün. Həyatınızda şöhrət qazanmaq istədiyiniz məqamlar varmı? Bəs imanlılar cəmiyyətinizdə? Yaxud məsihçi qrupunuzda? Siz başqa imanlılar və qruplar arasında "ad çıxarmaq" istəyirsinizmi?

   Bəzən biz rəhbər kimi ucaldılmaq və şərəfləndirilmək, yaxud "ən yaxşı" cəmiyyət, "ən effektli təşkilat" olaraq tanınmaq həvəsinə düşürük. Belə həvəs necə 3-7-ci ayələrdə deyilənlərə ziddir?

4) 9-11-ci ayələrə təkrar baxın. Bütün həmdə və izzətə kim layiqdir?

   Əgər siz özünüzü şərəfləndirməyə çalışdınızsa, indi duada Allahdan sizi bağışlamasını diləyin. Ondan sonra Onu Rəbb olaraq şərəfləndirməyə vaxt ayırın.

## Növbəti dərsdən əvvəl Yaradılış 12-15-ci fəsilləri 6oxuyun.

**Bu fəsillərin hamısını oxuya bilməsəniz, ən azı Yaradılış 12:1-9-u və 15-ci fəslin hamısını oxuyun.**

# 5. İBRAHIM: ALLAHIN DƏVƏTI VƏ ƏHDI

## *Yaradılış 12-15*

**Müzakirə üçün sual**

Əvvəlki dərsi yada salın – insan necə qürurla Allahdan ayrı olaraq ad çıxarmaq həvəsinə düşmüşdü? Allah buna necə cavab verdi?

**Giriş**

İbrahim imanlıların atası adlanır. Onun tarixçəsi Yaradılış 11:26 – 25:11-də nəql olunmuşdur. İbrahimin tarixçəsini oxuyarkən (əvvəllər o, İbram adlanır) görürük ki, onun da, hamı kimi, nöqsanları və zəif cəhətləri var idi. Bununla belə, İbrahim Allahın ona danışdığını imanla qəbul edən və dediyinə əməl edən bir adam idi. Bu dərsdə biz onun həyatında baş verən ən mühüm hadisələrdən bir neçəsini nəzərdən keçirəcəyik. Oxuyarkən fikirləşək: İbrahimin imanı bizi də imanla yaşamağa necə ilhamlandıra bilər?

**Yaradılış 12:1-9-u oxuyun.**

1. 1-ci ayədə Allah İbrama nə buyurdu?

   İndi 4 və 5-ci ayələrə baxın. İbram öz evini tərk edəndə neçə yaşında idi? Kim onunla birgə getdi?

   Sizcə, İbram hər şeyi qoyub Allahın ona dediyi yerə gedəndə, hansı əziyyətlər çəkdi?

2. 2 və 3-cü ayələrə diqqətlə baxın. Allahın İbrama verəcəyi müxtəlif xeyir-duaları sadalayın.

3. Allah İbrama *bərəkət qaynağı olacağını* və "yer üzünün bütün tayfaları"nın onun vasitəsilə xeyir-dua alacağını söylədi. Bu, heyranedici vəddir! Hər kəs Allahdan xeyir-dua və bərəkət almaq istəyir. Sizcə, başqaları üçün "bərəkət qaynağı olmaq" nə deməkdir?

   Siz həyatınızın başqaları üçün bərəkət qaynağı olmasını arzu etmisinizmi? Öz fikirlərinizi izah edin.

**İbramın Allahı tanıması nə məna daşıyır?**

İbram Allahın gösterdiği yerə getmək üçün imanla yola çıxdı. Allahın İbrama necə danışdığını dəqiq bilmirik. Səsini qulaqları ilə eşitdimi? Yoxsa ürəyinin dərinliyindən gələn bir səsin Allahın səsi olduğunu dərk etdimi? Müqəddəs Kitab bunu bildirmir. Lakin bir şey aydındır ki, İbram öz torpağının əmin-amanlığından vaz keçdi

və Allahın onu göndərdiyi uzaq, qərib ölkəyə getdi. Orada başqa dildə danışan, başqa adətləri olan insanlar yaşayırdılar. İbram ona Özünü yavaş-yavaş tanıdan Allaha güvənməyi öyrənirdi.

Yəqin ki, İbramın öz torpağını tərk etməsi ilə bağlı cavabsız qalan çoxlu sualları olub. Allahın ardınca gedəndə həmişə belə olur. Allah bizi Öz yoluna dəvət edəndə hər şeyi ətraflı danışmır. Ən vacibi odur ki, biz Ona İbram kimi güvənək və itaət edək. İbram Ona iman etdiyi və həm özü, həm də başqaları üçün bərəkət qaynağı olduğu kimi, biz də buna qadir olduğumuza əmin ola bilərik. Ancaq Allahın ona vəd etdiyi xeyir-dualar dərhal verilməyib. Hətta İbramın ömrü ərzində hamısı həyata keçməyib.

4. İbramın səyahətinin xəritəsinə baxaq. (Muqəddəs Kitabın arxasında birinci xəritə bu yeri—Qədim dunya göstərir.) İbramın doğma şəhəri olan Ur şəhərini tapın (Bax: Yaradılış 11:31). Əvvəllər məskən saldıqları Xaran şəhərini tapın. İbram Xarana qədər neçə kilometr yol getdi?

   İndi isə Allahın İbramı göndərdiyi torpağı – Kənanı tapın (Bax: Yaradılış 12:5-6). İbram Xarandan Kənana qədər təqribən neçə kilometr yol getdi?

5. İbram Kənana çatanda Allah ona nə dedi? (7-ci ayə)
   İbram Allahın vədinə necə cavab verir?

**İbram ibadəti öyrənir**

Diqqət yetirin ki, 8-ci ayədə İbram başqa bir qurbangah qurdu. O, ömrünün müxtəlif dövrlərində Allaha qurbangahlar qururdı. İbram Allaha ibadət etməyə vaxt ayırırdı. O dövrdə heyvanın qurbangahda qurban kəsilməsi, insanın sitayişini və inamını göstərən bir ibadət ifadəsiydi. Yadda saxlamaq vacibdir ki, dünyadakı insanların böyük əksəriyyəti yeganə həqiqi Allah haqqındakı biliyi itirmişdi. İbramın dövründə bütlərə sitayiş geniş yayılmışdı. Kənan xalqının nəzərində İbramın Allahı sadəcə olaraq onların allahları kimi bir allah idi. İbramın özü yeganə həqiqi Allah haqqında gündən-günə yeni şeylər öyrənirdi, getdikcə Allahın haqqında biliyi artırdı. İbram Allaha güvənib itaət etdikcə, Allah ona daha çox Özünü tanıdırdı.

*İllər ötüb keçdi. O vaxtlarda İbram Kənandakı qıtlığa görə Misirə getdi. Arvadı Saray barədə firona yalan danışdı, sonra Kənana qayıtdı və Ur şəhərindən çıxandan bəri onunla birgə səyahət etmiş qardaşı oğlu Lutdan ayrıldı. Lut, günah içində batan Sodom və Homorra şəhərlərinin yerləşdiyi münbit vadidə yaşamağı qərara aldı. Bu qərarına görə Lutun daha sonra ciddi problemləri oldu, biz bu haqda 7-ci dərsdə oxuyacağıq.*

*İbram yaşlanmışdı, amma övladı yox idi. Saray da qısır idi. Yaradılış 12-ci fəsildə Allahın İbrahimə verdiyi vəd necə həyata keçə bilərdi? Sarayın övladı yoxdusa, İbramın nəslindən böyük millət necə törənə bilərdi? Bundan əlavə, Allah İbrama Kənan torpağını verəcəyini demişdi (Bax: Yaradılış 13:14-18). Lakin İbram orada gəlmə kimi yarı köçəri həyat sürürdü. İbramın yeganə həqiqi Allaha və Allahın sədaqətinə, sözünün üstündə duracağına imanı sınanırdı. Allah övlad və torpaq barəsindəki vədlərini necə yerinə yetirəcəkdi? İbram qocaldıqca gözləməyə davam edirdi. (Yaradılış 12:10 – 14:24)*

*Sizcə, niyə Allah o qədər uzun müddət gözləyirdi? Sizcə, O gözləyərkən, İbramın həyatında nə baş verirdi?*

İndi Allahın İbramla bağladığı əhdə baxaq.

**Yaradılış 15-ci fəslin hamısını oxuyun.**

6. 1-ci ayədə Allah İbrama nə dedi?

   2-5-ci ayələri təkrar oxuyun. 2-3-cü ayələrdə İbramın hisslərini necə təsvir edərdiniz? 4-5-ci ayələrdə Allah ona necə cavab verdi?

7. 6-cı ayəni təkrar oxuyun. Allahın İbramı saleh sayması üçün lazım olan bircə şey nə idi?

**Biz Allahın nəzərində necə saleh sayılırıq?**

Yaradılış 15:6 Allahla necə birgə yaşaya biləcəyimizi anlamaq üçün əsas ayədir – bu ayənin öyrətdiyi həqiqət Müqəddəs Kitabda dönə-dönə təkrarlanır. İnsan heç vaxt yaxşı əməllərinə görə Allahın nəzərində saleh sayılmaz – saleh sayılanlar həmişə imanlarına görə saleh sayılarlar. Bu həqiqət Nuh üçün, İbram üçün (sonradan o, İbrahim adlandı) və Əhdi-Ətiqdəki mömin kişilər və qadınların hamısı üçün hər zaman doğru olduğu kimi, bu gün bizim üçün də doğrudur.

İbramdan təqribən 2,000 il sonra yaşamış həvari Paul Romalılara Məktubunun 4-cü fəslində ondan yazmışdır. Romalılara 4:1-8-i oxuyun. Bu ayələri nəzərdən keçirərkən imanımızın Allah üçün niyə bu qədər əhəmiyyətli olduğunu izah edin. (Bax həmçinin: İbranilərə 11:6)

8. Yaradılış 15:17-21-i təkrar oxuyun. 18-ci ayə bizə Rəbbin İbramla əhd bağladığını bildirir. Aşağıdakıları oxumazdan əvvəl bu sualı müzakirə edin: Sizcə, Allahın insanlarla əhdləri insanlar arasındakı dünyəvi müqavilələrdən necə fərqlənir?

**Allahın insanlarla əhd bağlaması nə məna daşıyır?**

"Əhd" sözü Əhdi-Ətiqdə və Əhdi-Cədiddə dəfələrlə işlənmişdir. Müqəddəs Kitabın bizə Allahın insanlarla əhdləri haqqında öyrətdiklərindən bir neçəsi aşağıda verilir:

1) **Əhdin bağlanmasının səbəbkarı Allahdır.**

Bu gün iki nəfər bir-biri ilə müqavilə bağlayanda müqavilənin şərtləri barədə hər iki tərəf qərar verir. Tərəflərin ikisi də bərabərdir. Allahla insan arasında bağlanan əhd isə belə deyildir. Allah insanın yanına gəlir və insanı Onunla əhd bağlamağa çağırır. Əhdə Allahın bir vədi daxil olur. Allah insanın yaşadığı dünyaya girərək Özünün bu dünya üçün niyyətlərini ona bildirir və niyyətlərini yerinə yetirəcəyinə dair vəd verir. Müqəddəs Kitabın əhdlərində insanları sevən və bəşəriyyətin tarixini müsbət istiqamətə yönəldən Allahı görürük. Əhdləri Allahın heyranedici planlarını açıqlayır.

2) **Əhd bir sevgi bağıdır.**

Əhd, Allah ilə insan arasındakı dərin şəxsi münasibətlərin nişanəsidir. Allah insanı Ona güvənib yaxşı niyyətlərinə görə yaşayaraq Onunla əhd bağlamağa dəvət edir. Belə şəxsi münasibətlər insanların bütlərlə qurduqları qorxuya əsaslanan münasibətlərdən xeyli fərqlənir. Əhdi-Ətiqin sonrakı Kitablarında Allahın yəhudi xalqı ilə bağladığı əhddə Allah onları Öz xalqı adlandırır. Onlar da buna cavabən Onu "Allahımız" adlandırırlar.

3) **Allah əhddə Onun üzərinə düşən vəzifəni həmişə sədaqətlə yerinə yetirir, hətta xalqı üzərinə düşən vəzifəni yerinə yetirmədikdə belə.**

İnsan tarix boyunca tez-tez bütpərəstliyə dönürdü. İradəsi çox zəifdir. Allah həmişə sözünün üstündə duracağına bizi inandırır.

İbrahim Allaha iman və itaət edirdi. Onun tarixçəsini oxuyanda Allahın Özü ilə münasibət qurmağa dəvət etdiyi bir adamı görürük. Bu dəvətə cavabən İbrahim Allaha güvənir, itaət edir və onların arasında münasibət yaranır.

Allah bizə İbrahimin əhvalatını verib ki, biz də belə münasibəti arzu edək. Hamımız Allahla münasibət üçün yaranmışıq. İbrahimin yeganə həqiqi Allaha imanda atdığı addımlar bütün dünyaya xeyir-dua verdi və bizə iman yolunu öyrətdi. İbrahimin imanı vasitəsilə vəd olunmuş övladı doğuldu. O övladdan İsrail xalqı yarandı və İsrail xalqı vasitəsilə dünyanın Xilaskarı İsa Məsih dünyaya gəldi. Allahın İbrahimə xeyir-dua verməsindəki niyyəti günah üzündən lənətə məruz qalmış dünyaya təzədən xeyir-dua vermək idi. İsaya iman edənlər də İsa Məsihin həyatını və ümidini bu dünyaya gətirərək başqaları üçün bərəkət qaynağı olmağa çağırılmışlar.

## *Bu bizim üçün nə məna daşıyır?*

### Tətbiq və Dua

**Yaradılış 12:2-3-də Allah dedi: "…sənə xeyir-dua verəcəyəm… yer üzünün bütün tayfaları sənin vasitənlə xeyir-dua alacaq".** Allahın xeyir-duaları İbrahimə kamil insan olduğuna görə deyil, Allahın vədlərinə iman etdiyinə görə verilmişdir. Eyni şey bizə də aiddir. **Yaradılış 15:6-da "İbram Rəbbə iman etdi və Rəbb bunu ona salehlik saydı"** deyə yazılıb. İbrahim çox cəhətdən xeyir-dualı adam idi, amma ən vacib xeyir-duası o idi ki, Allah onu saleh saymışdı. Buna görə İbrahim "Allahın dostu" adlandırıldı (Yaqub 2:23).

İbrahimdən bir neçə min il sonra Həvari Paul İbrahimin imanını məsihçilərin imanına bənzədir.

**Romalılara 4:1-8 və 22-25-i oxuyun.**

1) Günahların bağışlanması və Allah tərəfindən saleh sayılmaq nə mənada həyatda ala biləcəyimiz ən böyük xeyir-dua olur?

2) İbrahimin imanı həyatı boyunca sınandı və bizim imanımız da sınanır ki, əsl iman olub-olmadığı bilinsin. Günahlarınızın Məsih vasitəsilə tamamən bağışlanmış olduğuna və *yalnız iman vasitəsilə* Məsihin salehliyinə büründüyünüzə inanmaq sizə bəzən çətin gəlirmi? Əgər belədirsə, sizcə, buna inanmaq sizə niyə çətin gəlir?

3) Romalılara 4:20-də İbrahimin "imanında möhkəm durduğu" yazılıb. Siz və birgə ibadət etdiyiniz imanlılar necə imanda möhkəm dura bilərsiniz?

İsa Məsihin bütün xeyir-dualarını yaşaya biləsiniz deyə həyatınızda canlı iman üçün dua edin. Eləcə də dua edin ki, həyatınız İbrahimin həyatı kimi başqaları üçün bərəkət qaynağı olsun.

## Növbəti dərsdən əvvəl Yaradılış 16-21-ci fəsilləri oxuyun.

**Bu fəsillərin hamısını oxuya bilməsəniz, ən azı 16 və 17-ci fəsillərin hamısını, 18:1-15-i və 21:1-16-nı oxuyun.**

*Bunların hamısı imanlı olaraq öldü.*
*Vəd edilən şeylərə nail olmadılar,*
*amma bunları uzaqdan görüb salamladılar və*
*özlərinin yer üzündə yad və qərib olduqlarını iqrar etdilər.*
*Axı belə sözləri deyənlər*
*bir vətən axtardıqlarını göstərirlər.*
*Əgər onlar çıxdıqları ölkə barəsində düşünsəydilər,*
*qayıtmağa imkanları olardı.*
*Amma əslində onlar daha yaxşı bir ölkəni,*
*yəni səmavi vətəni arzu edirdilər.*
*Buna görə Allah Özünü onların Allahı adlandırmaqdan*
*utanmır, çünki O onlar üçün şəhər hazırlamışdır.*

***İbranilərə 11:13-16***

# 6. İBRAHIM: İSMAILIN VƏ İSHAQIN DOĞULMASI

## *Yaradılış 16-21*

**Müzakirə üçün suallar**

Əvvəlki dərsi yada salın – Allah İbrama hansı iki vədi vermişdir? (Yaradılış 15:5 və 15:18). İbram qeyri-mümkün görünən bu iki vədə necə cavab verdi? Niyə İbram Allahın nəzərində saleh sayıldı?

**Giriş**

Bu dərsdə biz Allahın İbramla əhdində üzərinə düşən vəzifəni necə möcüzə ilə yerinə yetirməyə başladığına baxacağıq. İbram və Saray bunun həyata keçməsini uzun müddət gözləmişdilər. Onların o vaxt verdikləri bir qərar bu gün hələ də dünyaya təsir edir.

**Yaradılış 16-cı fəsli oxuyun.**

1. 1-4-cü ayələri təkrar oxuyun. İbram Sarayın təklifi ilə nə etməyi qərara aldı? Həcər kim idi? (1-ci ayə)

   Siz Sarayla İbramın qərarı haqqında nə düşünürsünüz?

**Sarayla İbram düzgün hərəkət etdilərmi?**

Rəbb İbrama böyük nəsli olacağını bildirəndə İbramın bir arvadı var idi – Saray. İbramla Saray vədin onların öz nikahları vasitəsilə həyata keçməsini uzun illər boyunca gözləmişdilər. Qocalandan sonra Allahın vədinin həyata keçməsi üçün əvvəlcə ağlına gəlməmiş bir yola əl atmağı qərara aldılar: İbram Sarayın qarabaşı vasitəsilə uşaq sahibi olacaqdı. O vaxtlarda belə işlər heç də qeyri-adi deyil idi, lakin Rəbb onlara bunu deməmişdi. Əhvalatın bu yerində Allah onların hərəkəti barədə nə düşündüyünü bildirmir, amma bu günkü dərsdə biz Onun daha sonra bu barədə nə dediyini görəcəyik. Hər şeyə baxmayaraq, O hələ də Həcərə qarşı mərhəmət göstərdi.

2. Saray Həcəri aralarındakı münaqişəyə görə qovandan sonra Allah Həcərin doğacağı oğul haqqında nə dedi? (9-12-ci ayə)

**Yaradılış 17:1-8-i oxuyun.**

3. İsmailin doğumundan on üç il keçmişdi. İbramın 99, Sarayın 89 yaşı vardı. Rəbb bir daha gəlib İbrama danışdı, onunla əhdini yadına saldı.

Bu əhddə İbramın üzərinə düşən vəzifə nə idi? (Bax: 1-ci ayə). Sizcə, bu nə deməkdir?

Allahın üzərinə düşən vəzifə nə idi, yəni Allahın İbrama verdiyi üç vəd nə idi? (2, 4, 7 və 8-ci ayələr)

4. O vaxt Allah İbramın adını İbrahimə dəyişdi. İbramın mənası "ali ata", İbrahimin mənası isə "çoxlarının atası"dır. Sizcə, Allah onun adını niyə dəyişdi?

**Yaradılış 17:9-11-i oxuyun.**

5. Allah İbrahima dedi ki, özü və gələcək nəsilləri əhdə əməl etməlidirlər. Allah İbrahima əhdin əlaməti olaraq nə etməyi əmr etdi? (10-11-ci ayələr)

**Aşağıdakıları oxumazdan əvvəl,** mədəniyyətinizdə sünnət varsa, sizin və xalqınız üçün nə məna daşıdığını müzakirə edin.

**Sünnət Müqəddəs Kitabın dövründə Allahın xalqı üçün nə qədər əhəmiyyətli idi?**

Bəs bu gün nə qədər əhəmiyyətlidir?

Yaradılış 17-ci fəsildə Müqəddəs Kitabda ilk dəfə sünnətdən bəhs olunur. Allah İbrahima dedi ki, sünnət xalqın əhdə sadiq qaldığını, yeganə Allahın yolunu tutduqlarını göstərən əlamət olacaq. Bütün kişilər sünnət olunmalı idi. Sünnət olunmayanlar əhdi pozmuş sayılır və xalqın arasından qovulurdu. Ondan bəri bütün yəhudi oğlan uşaqları üçün sünnət mərasimi keçirilirdi.

İbrahimdan sonra yəhudi xalqı sünnətli olduqları halda heç də hər zaman əhdə sadiq qalmazdı, bəzən bütlərə ibadətə dönərdilər. İbrahimdən yüzlərlə il keçmiş Musa xalqı Allahın yolundan çıxmamağa çağırdı və sünnətin əsl mənasını açıqladı. Onlar inadkar ürəklərini sünnət etməliydilər (Qanunun Təkrarı 10:16)

Daha sonra, Əhdi-Cədiddə Vəftizçi Yəhya onun yanına gələn insanları məzəmmətlədi ki, deməsinlər: "Biz İbrahimin övladlarıyıq", yəni "Biz sünnətli yəhudi xalqıyıq, buna görə Allah bizi qəbul edəcək". Yəhya onlara təhlükəli ruhani vəziyyətləri barədə xəbərdarlıq etdi. Onları tövbə etməyə və təkcə sünnət kimi zahiri əlamətlərlə deyil, bütün ürəkdən Allaha bağlı olmağa çağırdı.

Həvari Paul İsa ilə qarşılaşmazdan əvvəl sünnətin əhəmiyyətinə çox ciddi inanan yəhudi dini rəhbər idi. İsanın yolunu tutduqdan sonra o, məsihçilərə xəbərdarlıq etdi ki, xilas olmaq üçün sünnətə ümid bağlamasınlar. Qalatiyalılara Məktubun əsas mövzusu budur.

Paul o Məktubunu belə yekunlaşdırdı: "Çünki əhəmiyyət kəsb edən sünnətlilik yaxud sünnətsizlik deyil, yeni yaradılışdır" (Qalatiyalılara 6:15). Paul deyirdi ki, imanlının Allahın xalqına mənsub olduğunu göstərən əlamət İsa Məsihə iman vasitəsilə Ruhdan doğulmuş olmasıdır.

Bu gün dünyanın bəzi yerlərində məsihçilər oğlan uşaqlarını sağlamlığı üçün faydalı olduğuna görə sünnət edirlər. Lakin məsihçilər xilas üçün sünnətə əsla ümid bağlamazlar.

**Yaradılış 17:15-22-ni oxuyun.**

6. İbrahim Saranın oğlu olacağını öyrənəndə, bu xəbərə necə reaksiya verdi? (Bax: 17-18-ci ayələr). İbrahimın neçə yaşı var idi? Bəs Saranın? (Onun da adının dəyişdiyinə diqqət yetirin)

7. Bu ayələrdə Allah İbrahima verdiyi vədi daha da aydınlaşdırır. Allah hansı oğlu vasitəsilə əhdini davam etdirəcək idi? (20-21-ci ayələr)

**Yaradılış 18:1-15-i oxuyun.**

8. Bu əhvalat Allahın əvvəlki fəsildə verdiyi vəddən biraz sonra baş verdi. 12-ci ayədə Sara ilahi elçinin gətirdiyi xəbərə necə reaksiya verdi?

9. 13-14-cü ayələri təkrar oxuyun. Elçi İbrahima Sara barədə nə sual verdi? Siz Saranın yerində olsaydınız, necə cavab verərdiniz?

**Yaradılış 21:1-7-ni oxuyun.**

10. Elçinin verdiyi sual (18:14) və bu ayələrdəki vədin Yaradılış 21-ci fəsildə həyata keçməsi haqqında düşünün. Yadınızdadır ki, onlar əvvəl Həcərin vasitəsilə uşaq sahibi olmaq qərarına gəlmişdilər. Lakin Allah açıq şəkildə təsdiq etmişdi ki, vəd olunan uşaq Saranın vasitəsilə dünyaya gələcək.

    İbrahimla Saranın neçə illər Allahın sözünün həyata keçməsini gözlədikdən sonra nə hiss etdiklərini təsəvvürünüzə gətirməyə və anlatmağa çalışın.

**Yaradılış 21:8-21-i oxuyun.**

11. Saranın İsmaili rədd etməsi ilə bağlı olaraq Allahın İbrahima dediyi sözü təsvir edin. (12-13-cü ayələr)


Mündəricat

**İsmail və İshaq**

Allah həm İsmailə, həm İshaqa xeyir-dua vəd etdi – ikisindən də böyük millətlər törənəcək idi. İsmail ərəb xalqının atası oldu. Amma İshaq xüsusilə vəd olunmuş oğuldur. Allahın əhd bağladığı və xüsusi münasibətlər qurduğu İsrail xalqı İshaqdan törəndi. Allah İsrailə Özünü tanıtdı və onlar öz növbəsində Allahın bütün bəşəriyyətlə qurmaq istədiyi münasibətlər barədə digər xalqlara şəhadət etməliydilər. Və vaxtında Allah vəd olunmuş oğul İshaq vasitəsilə vəd olunmuş Xilaskarı dünyaya göndərdi.

## *Bu bizim üçün nə məna daşıyır?*

**Tətbiq və Dua**

İbrahimla Sara oğlu olacağına dair vədin həyata keçməsini uzun illər boyunca gözləyiblər. Gözlədikləri vaxt bir dəfə öz müdrikliyi ilə hərəkət edib, Saranın qarabaşı Həcərin köməyi ilə buna nail olmağı qərara alıblar.

Bu əhvalatda Allah onlara Özü haqqında bir neçə həqiqəti göstərdi. O bizə Müqəddəs Kitabın digər yerlərində də bu həqiqətləri təkrar-təkrar öyrədir.

- Birincisi, Allah həmişə vədlərini yerinə yetirir. Biz Onun etdiyi işləri başa düşməyə bilərik, lakin bunları necə etməsinin, bunlar üçün seçdiyi vaxtların arxasında həmişə bir məqsəd vardır.
- İkincisi, Allah üçün qeyri-mümkün bir iş yoxdur. Sara və İbrahim elə bilmişdilər ki, qocalanda uşaq sahibi ola bilməzlər. Lakin Allah bunu edəcəyini demişdi və etdi! Bununla belə, İbrahimla Saraya Allahı ümidlə gözləmək, Allaha güvənmək lazım oldu.

**Süleymanın Məsəlləri 3:5-6-nı bir neçə dəfə oxuyun.**

1) Siz də bəzən Allahı ümidlə gözləməli olduğunuzu bilə-bilə nəyinsə həyata keçməsi üçün öz ağlınızla hərəkət edirsinizmi?
2) Hər şeyi Allahın qaydası ilə etməyi və Allahın hər şeyi Öz istədiyi vaxtda gerçəkləşdirəcəyinə güvənməyi necə öyrənə bilərik?
3) İndi duaya vaxt ayırın, yuxarıdakı məsəlin həqiqətlərinin həyatınızda baş tutması üçün dua edin.

## Növbəti dərsdən əvvəl 18:16-31-i və 19-cu fəslin hamısını oxuyun.

# 7. Sodom Və Homorranın Məhv Olması

## *Yaradılış 18:16-33 və 19:1-29*

**Müzakirə üçün suallar**

Əvvəlki dərsimizdə Allahın İbrahimə verdiyi vədi yerinə yetirdiyini görmüşdük. O hansı vəd idi? O vəd həyata keçdiyi vaxt İbrahimin və Saranın neçə yaşları var idi? Allah İbrahimə Allahın seçilmiş xalqı olduqlarını göstərmək üçün nə əmr etmişdi?

**Giriş**

Bu dərsdə biz bir az geriyə qayıdıb, əvvəlki dərsimizdə buraxdığımız bir əhvalata nəzər salacağıq. Yaradılış 12-də yazılıb ki, İbrahim əcdadlarının torpağını tərk edəndə qardaşı oğlu Lut da ona qoşulmuşdu. 13-cü fəsil İbrahimlə Lutun ayrılmasından bəhs edir. Lut Sodom və Homorra adında iki şəhərin yerləşdiyi münbit bir düzənlikdə məskunlaşmışdı. Bu dərsdə biz Allahın bu iki şəhəri necə mühakimə etdiyini görəcəyik və niyə onları bu qədər sərt bir şəkildə mühakimə etdiyindən danışacağıq. Bu əhvalat İbrahimlə Saraya bir övlad sahibi olacaqlarını müjdələyən üç kişi onların yanına gələndən dərhal sonra baş verdi. Ishaq hələ anadan olmamışdı.

**Yaradılış 18:16-33-ü oxuyun.**

1. Rəbb niyə dedi ki, edəcəyi şeyi İbrahimə bildirəcək? (Bax 17-19-cu ayələr)

   İbrahimin açıq-aşkar Sodom və Homorranın Allahın mühakiməsi üzündən məhv ediləcəyini başa düşməsi, ürəyində sağlam bir Allah qorxusunun əmələ gəlməsinə necə kömək edirdi? Bəs övladlarını Allah yolunda tərbiyə etməsi üçün onu necə ruhlandırırdı?

2. Niyə Rəbb Sodom və Homorranı məhv etməyə qərar verdi? (20-ci ayə)

3. 23-25-ci ayələri təkrar oxuyun. İbrahim Rəbdən nə xahiş etdi?

   25-ci ayədə İbrahim Allaha ədalətli Hakim kimi necə müraciət etdi?

   Rəbb onun xahişini yerinə yetirməyə razı oldumu? (26-cı ayə)

   Allahın sevən və ədalətli olduğunu bilmək sizi necə əminliklə dua etməyə ruhlandırır?

4. İbrahimin Sodom şəhərinin əhalisi üçün nə qədər cəsarətlə yalvardığına diqqət yetirin. (27-32-ci ayələri təkrar oxuyun)

   Rəbb axırda şəhəri məhv edilməkdən qurtarmaq üçün neçə saleh adamın lazım olduğunu təsdiq etdi?

**Yaradılış 19:1-29-u oxuyun.**

5. İbrahimdən ayrılandan sonra birbaşa Sodoma yönələn iki adam Sodomun şəhər qapılarına çatanda onları kim qarşıladı, salamladı, qonaq saxladı? Lut kimdir? (Yadınızda qalmayıbsa, bu dərsin girişinə baxın)
6. 1-2-ci ayələrə baxın. Sizcə, niyə Lut o kişilərin gecə vaxtı şəhər meydanında qalmamağında israr edib?
7. Yaradılış 18:20-ni təkrar oxuyun. Yaradılış 19-cu fəsildə sodomluların hərəkətləri barədə oxuyandan sonra izah edin, Rəbb niyə deyib ki, "Sodom və Homorraya qarşı qalxan fəryad böyük, oranın adamlarının günahı çox ağırdır…."

**Lutun sodomlularla söhbəti**

Lutun qonaqlarını qorumaq üçün həyatını təhlükə altına atması təqdirəlayiqdir. Lakin qonaqları uğruna öz qızlarını qurban verməyə hazır olması göstərir ki, Lut Allahdan kömək gözləmirdi və qızlarını qiymətləndirmirdi. Yaranmış pis vəziyyətdən çıxış yolu öz müdrikliyi ilə tapmağa çalışırdı. Çox şükür ki, mələklər onun köməyinə yetişib həm özünü, həm də qızlarını xilas etdilər.

8. 12-14-cü ayələri təkrar oxuyun. Mələk nə üçün Sodom şəhərinin məhv olacağını dedi? Lut və qohumları nə etməliydi? Allahın Kəlamı Allahdan gizlin heç nəyin olmadığını deyir. Siz heç düşündünüzmü ki, bir şəhərin günahları üzündən qalxan fəryad Allaha gəlib çatanda Allah o şəhəri mühakimə edə bilər?

   Sizcə, bu günkü şəhərlərin hansı günahları Rəbbi ən çox kədərləndirir?
9. 14-cü ayəyə görə Lutun qızlarını almaq istəyən kürəkənlər Lutun xəbərdarlıqlarını necə qəbul etdilər?
10. 15-22-ci ayələri oxuyun. Sizcə, Lut niyə tərəddüd etdi? Onu saxlayan, getməyə buraxmayan şeylər nə ola bilərdi?
11. Sodomdan cəmi neçə nəfər qurtarıb? Yaradılış 18:30-da İbrahimin son xahişini yada salın. On nəfər saleh adam tapılıbmı?

**Lut şərlə dolu cəmiyyətə necə münasibət bəsləyirdi?**

**Peterin 2-ci Məktubu 2:7-8-i oxuyun.** Bu ayələrdə həvari Peter Lutun ətrafındakı şərə görə ruhunda iztirab çəkdiyini yazdı. Lut son dərəcə pis, əxlaqsız cəmiyyətdə yaşayan saleh adam idi. Şəhərinə gələn iki mələklə rəftarlarından sodomlulardan Lutdan xeyli fərqləndiyini görürük. Bazarda qonaqlara rast gələn Lut, onların təhlükəsizliklərinə görə narahat oldu, onları öz evinə dəvət etdi, onlara qonaqpərvərlik göstərdi. Onları qorumaqdan ötrü öz həyatını təhlükə altına atdı.

Lakin Lut ətrafındakıların pis işlərində iştirak etməsə belə, qaçmaq vaxtı gələndə tərəddüd etdi. O artıq o mühitə öyrəşmişdi, şərdən iztirab çəksə də, onu tərk etmək istəmirdi.

Bəs siz bu gün yaşadığınız cəmiyyətdə gördüyünüz şərə necə reaksiya verirsiniz? Şəri elə də lazımmış kimi qəbul edirsinizmi? Yoxsa Allahın Padşahlığının gəlib cəmiyyəti dəyişdirməsi üçün səylə dua edirsiniz? Yeri gəldikdə şərə qarşı çıxış etməyə hazırsınızmı?

12. Yaradılış 19:23-29-u oxuyun. Allah Sodomu, Homorranı və o düzənlikdəki digər yaşayış yerlərini necə məhv etdi? Bəs ondan sonra Lut, sizcə, nə düşündü?
13. Lutun arvadı mələyin əmrini necə pozdu? (Qayıdıb 17-ci ayəyə baxın) Onun başına nə iş gəldi? (26-cı ayə)

    Neçə-neçə illər sonra İsa ikinci gəlişində dünyanın mühakimə ediləcəyindən danışarkən Sodom və Homorranın mühakiməsini yada saldı. Luka 17:32-33-də İsa belə dedi: “Lutun arvadını yadınıza salın! Kim canını qorumaq istəsə, onu itirəcək, amma kim canını itirsə, onu yaşadacaq”.

    Sizcə, İsa Lutun arvadını bu şəkildə misal gətirdikdə nə nəzərdə tuturdu?
14. Sizcə, İbrahim aşağıdan, düzənlikdən qalxan tüstüyə tamaşa edərkən nə düşünür və nə hiss edirdi? (27-28-ci ayələr)

## *Bu bizim üçün nə məna daşıyır?*

**Tətbiq və Dua**

Bu dünyanın zülməti, şəri əbədi qalmaz. Bu dünya Sodom və Homorra kimi mühakimə olunar. Biz Sodomdan çıxmalı, Məsihə sığınmalı və bu asi dünyadakı insanlara Məsihi elan etməliyik. Onların mühakimədən azad olmaları üçün yeganə ümid yeri Məsihdir. Günahkarların gözləri kordur, gələcək mühakiməni görməyə qadir deyildirlər. Bəziləri günahları üçün gələcək mühakimənin təhlükəsini ciddi qəbul etmirlər.

İbrahimin şərlə dolu Sodomun xilası üçün dua etməsində biz Allahın günahlı dünyaya olan məhəbbətinin bir misalını görürük. Biz də Allahın mərhəmətinə nail olandan sonra bu dünyanın həlak olanları üçün can yandırmağa başladıq. Rəbbi tanımayan qohumlarımızın xilası üçün can yandırırıq. Ətrafımızdakı insanlar: qonşularımız, iş yoldaşlarımız, şəhər və ya kəndimizin əhalisi üçün can yandırırıq. Mühakimənin yaxınlaşdığını görürük. Onların mühakimədən xilas olmaları üçün necə kömək edə bilirik?

İbrahim Sodom və Homorrada yaşayanların xilas olmaları üçün Allaha yalvardı. İsa həlak olan bütün bəşəriyyət üçün öldü və Rəbb bizi də insanlara görə dua etməyə çağırır. İnsanların kor gözlərinin açılması, İsaya iman etmələri üçün dua edirik. Duada onları qaranlıqdan nura çıxartmaq üçün müdriklik və qüvvət istəyirik.

1) Başqaları üçün dualarınızı düşünün. Kimlər üçün və necə dua edirsiniz?

**Peterin 2-ci Məktubu 3:9-u oxuyun.**

2) Siz heç kəsin həlak olmaması, lakin hər kəsin tövbə etməsi üçün Məsihlə birlikdə çalışırsınızmı?

3) İmanlılar tarix boyunca bir yerdə yığışıb şəhərlər və millətlər üçün dua etmişlər. Oyanış və Müjdənin yayılması üçün dua etmişlər. Allahın xalqının duaları sayəsində bir çox oyanışlar baş verib və Müqəddəs Ruh göydən tökülüb.

   Siz şəhərlər üçün dua edirsinizmi? Bəs millətlər üçün?

4) Başqaları üçün daha çox dua etmək istəyirsinizmi? Həlak olan dünya üçün dua etmək məqsədilə başqa imanlılarla bir yerdə nə vaxt və necə yığışa bilərsiniz?

   İndi bu dünyaya görə dua etmək üçün Allahdan sizə kömək etməsini diləyin.

## Növbəti dərsdən əvvəl Yaradılış 22-25-ci fəsillərin hamısını oxuyun. Mümkün olsa, 22-ci fəsil haqqında düşünməyə xüsusi vaxt ayırın.

Mündəricat

# 8. İBRAHIMIN SINANMASI

## *Yaradılış 22-25*

### Müzakirə üçün suallar

Əvvəlki dərsimizi yada salaq. Allah niyə Sodom və Homorra şəhərlərini məhv etdi? O, kimləri xilas etdi? Niyə onları xilas etdi?

İbrahimin Sodom üçün necə vəsatət etdiyini danışın. Rəbb niyə İbrahimin xahişini yerinə yetirməyə razı olmasına baxmayaraq şəhəri əsirgəmədi?

### Giriş

6-cı dərsdə görmüşdük ki, İbrahimin iki oğlu var idi. İsmail qarabaşdan təbii yolla doğulmuşdu; İshaq isə Allahın vədinə görə fövqəltəbii yolla doğulmuşdu. Allah həm İsmailə, həm İshaqa xeyir-dua vəd etmiş, lakin əhdindəki vədin İshaqla davam edəcəyini bildirmişdi. Burada Allah İbrahimdən elə bir şey tələb edir ki, İbrahim bunu etsə, İshaqa verilən vədin yerinə yetməsi qeyri-mümkün görünür. İbrahim Allaha güvənib əmrinə əməl edəcəkmi? Bu dərsdə İbrahimin imanının nə qədər artmış olduğunu görəcəyik.

### Yaradılış 22-ci fəsli oxuyun.

1. 2-ci ayəni təkrar oxuyun. Allah İbrahimin nə etməsini tələb etdi? Bu ayəni diqqətlə tədqiq edin. Allah, İbrahimin oğlu İshaq haqqında nə buyurdu?

   Sizcə, İbrahim, oğlu İshaqa qarşı necə hisslər bəsləyirdi? Sizcə, o, Allahın göstərəcəyi yerə getmək üzrə yola çıxarkən nə düşünürdü?

   1-ci ayəyə əsasən, niyə Allah İbrahimdən bunu tələb etmişdi?

2. 3-cü ayəni oxuyun. İbrahim Allahla mübahisə etdimi? Allahın əmrinə əməl etmək üçün nə vaxt yola çıxdı?

   Düşünün, siz özünüz Allahın dediyinə necə əməl edirsiniz? Allah İbrahimdən son dərəcə çətin bir şey iştəmişdi, lakin İbrahim Allaha güvəndi və ürəkdən itaət etdi. Sizcə, nə cür itaət Allahı razı salar?

3. 7-8-ci ayələri təkrar oxuyun. İshaq 7-ci ayədə atasına nə sual verdi?

   İndi 8-ci ayədə İbrahimin verdiyi cavabı təkrar oxuyun. Sizcə, İbrahim bu sözləri deyərkən nə düşünürdü?

**“...Qurban olacaq quzunu Allah Özü hazırlayacaq”**

Bu gözəl parçada İbrahimin imanının nə qədər artmış olduğunu görürük. Allah İbrahimə nə edəcəyini bildirməmişdi. Allahın qurban olacaq quzunu hazırlayacağına dair heç bir sübut İbrahimə verilməmişdi. Bununla belə, İbrahim İshaqın nəslindən böyük millət törədəcəyini vəd edən Allaha inanırdı. İbrahimin sözləri eyni zamanda Allahın qurban olacaq Quzunu yenə hazırlayacağı vaxta işarə edən bir peyğəmbərlik idi (Bax: Yəhya 1:29). Lakin Allah Öz Oğlunu dünyanın günahına görə verilən qurban olaraq göndərəndə, Oğlunun əvəzinə veriləcək başqa bir qurban yox idi.

4. İndi 9-19-cu ayələrdə hekayənin qalanını oxuyun. 9-10-cu ayələri nəzərdən keçirin. İbrahim bu ayələrdə nə etdi? Oğlunu həqiqətən qurban verməsinə nə qədər yaxınlaşdı?

   Sizcə, İbrahim bıçağı qaldırdığı anda nə hiss etdi?

5. 11-12-ci ayələri təkrar oxuyun. Rəbbin İbrahimə 12-ci ayədə dediyi sözlərə diqqət yetirin. İbrahimin oğlunu qurban verməsi nə göstərir?

   “Allahdan qorxmaq” ifadəsinin mənası haqqında nə düşündüyünüzü deyin.

   Necə olur ki, İbrahim bir yandan “Allahın dostu” adlanır (Bax: Yaqub 2:23), digər yandan isə “Allahdan qorxur”? Allahdan qorxmaq və eyni zamanda Allahı sevmək mümkündürmü? Fikrinizi izah edin.

6. Allah qurban olacaq heyvanı necə təmin etmişdi? (13-cü ayə) Sizcə, o vaxt İbrahim nə düşündü və özünü necə hiss etdi?

**Niyə Allah İbrahimdən oğlunu qurban verməyi tələb etdi?**

İbrahimdən sonra illər keçmişdi, insanlar Allaha qarşı itaətsiz olub uşaqlarını yalançı allah Molekə yandırma qurbanı olaraq təqdim etməyə başladılar. Yeremya 32:35-də Allah uşaqların qurban verilməsi barədə nə hiss etdiyini açıq şəkildə bildirdi. (Bax həmçinin: Qanunun Təkrarı 18:10) Yaradılış 22:1-də bunun bir sınaq olduğu izah edilir. Allah başlangıcdan bəri qurban olacaq quzunu hazırlayacağını planlaşdırmışdı. Ancaq O, İbrahimin ürəyini görmək üçün onu sınadı: İbrahim kimi daha çox sevəcək: oğlu İshaqı, yoxsa Allahı? 12-ci ayədə İbrahimin uğurla sınaqdan keçdiyini görürük. Allahın sözünə əməl etməkdən ötrü İbrahim oğlunu belə, fəda etməyə hazır idi!

7. Bu hekayənin Əhdi-Cədiddə Allahın Öz Oğlunu yolumuzda qurban verməsinə dair necə bir obrazı olduğunu müzakirə edin.

   İbrahimin həyatından bu əhvalat, Əhdi-Cədiddəki İsanın çarmıxının mənasını daha dərin dərk etməyinizə kömək edirmi? Fikrinizi izah edin.

8. Allah İbrahimə verdiyi vədi 15-18-ci ayələrdə təkrarlayır. O, hansı vədləri bir daha verir? İbrahimin itaətinin bütün insalara necə faydası olmuşdur? (18-ci ayə)

*Ondan sonra Saranın 127 yaşında vəfat etdiyini oxuyuruq. Yaradılış 24-cü fəsildə Allahın İshaqa həyat yoldaşı verməsi haqqında gözəl bir hekayə oxuyuruq. O fəsli hələ oxumamısınızsa, mütləq təklikdə oxuyun. 25-ci fəsildə İbrahim özünə başqa bir arvad alır və digər uşaqları olur. 175 yaşında vəfat edir. Sonrakı dərsimizdə Allahın məqsədlərinə nail olmaq üçün necə İbrahimin nəsli vasitəsilə işləməyə davam etdiyini oxuyacağıq.*

## ***Bu bizim üçün nə məna daşıyır?***

**Tətbiq və Dua**

XX əsrin ortalarında Hindistana xidmət etməyə gəlmiş bir imanlı qadın, 7 yaşlı qızı ilə birgə Hindistanın şimalındakı dağlarda internat məktəbinə doğru yol gedirdi. Qadın, bundan sonra öz balasının hər ilin doqquz ayını məktəbdə oxuyaraq keçirəcəyini bilirdi. Qızını oxutmaq üçün başqa çarəsi yox idi. Ana yol boyunca acı-acı ağladı: "Balaca qızımı ailədən uzaqda necə qoyub gedim? Ondan necə ayrılım?" Birdən ürəyində hiss etdi ki, Allah ona İbrahimin sözlərini yada salır; İbrahim İshaqı qurban olaraq təqdim etməyə qalxmazdan əvvəl nökərlərindən birinə demişdi: "Mən uşaqla oraya gedəcəyəm. Səcdə edib, yanınıza qayıdarıq" (Yaradılış 22:5). O anda ana anladı ki, oğlunu qurban olaraq təqdim etməyə gedən İbrahim kimi, o da Allaha xidmət yolunda balaca qızından ayrılması ilə səcdə edirdi. Bu, Allaha məhəbbətini göstərmək üçün verə biləcəyi bir hədiyyə idi. O, ana ürəyində övladını Allaha qurban olaraq təqdim etmişdi. Birdən ürəyi ilahi sevinc və sülh ilə doldu... İllər keçdikdən sonra qız böyüyüb qayıtdı və anası kimi Hindistanda Allaha xidmət etdi.

Bu dərsdə Allah İbrahimi sınayır və İbrahim oğlunu sevdiyindən də çox Allahı sevdiyini əməlləri ilə sübut edir. Əhdi-Cədiddə Matta Müjdəsində İsa, ardınca gələn şagirdlərini məhz belə sevgiyə çağırır.

**Matta 10:37-39-u oxuyun.**

1) 37-ci ayədə İsa atasını, anasını, oğlunu və ya qızını Ondan artıq sevən insan barədə nə deyir?

2) Ailənizdə sizə ən yaxın, ən əziz insanları düşünün. Birdən Allah sizi, Müjdə yaymaq üçün onlardan ayrılıb başqa yerə köçməyə çağırsa... Siz Allaha "Bəli" deyib əmrinə əməl edərsinizmi?

   Bəs ailənizdə əziz bir insan, Allahın onu təhlükəli bir yerdə xidmət etməyə çağırdığını desə və onu bu işə xeyir-duanızla buraxmağınızı istəsə... siz buna xeyir-dua verərsinizmi?

3) Mattadan bu ayələri təkrar oxuyun. 39-cu ayədə yazılmış sözlərin həqiqət olduğuna inanırsınızmı?

4) İndi bu ayələr haqqında Allahla danışmağa bir az vaxt ayırın. Dua edin ki, Allah bütün həyatınızı və əzizlərinizin həyatlarını Onun istədiyi şəkildə Allah yolunda xidmətə həsr etməyinizə kömək etsin.

## Növbəti dərsdən əvvəl Yaradılış 25:19-34-ü və 27-28-ci fəsilləri oxuyun.

**Biz 26-cı fəsli müzakirə etməyəcəyik, amma onu da oxusanız, yaxşı olar (Bax səhifə --)**

# 9. Yaqub: Seçilmiş Və Allahdan Xeyir-Dua Almış Adam

## *1-ci hissə, Yaradılış 25-28*

**Müzakirə üçün suallar:**

Əvvəlki dərsimizi yada salaq. Allah İbrahimi necə sınadı? Niyə sınadı? Bu hekayə nə mənada Allahın bütün insanlar üçün İsa vasitəsilə edəcəyi işin bir obrazı olmuşdur?

**Giriş**

Yaradılış Kitabını oxumağa davam etdikcə, Allahın Özünü tanıtdığını və məxluqları üçün məqsədlərini açıqladığını görürük. Allah, İbrahimdən böyük millət törədəcəyinə və ona Kənan torpağını verəcəyinə dair vədi Yaradılış 26-cı fəsildə İshaqa da iki dəfə təkrar etdi. İshaq da atası İbrahim kimi qurbangah düzəltdi və Allaha səcdə etdi. Bu iki dərsdə İshaqın oğullarının, xüsusən Yaqubun həyatında baş verən bəzi mühüm hadisələri diqqətlə nəzərdən keçirəcəyik.

**Yaradılış 25:21-34-ü oxuyun.**

1. İshaq evlənəndən iyirmi il keçmiş, Rivqa əkizlərə hamilə oldu. 22-23-cü ayələri təkrar oxuyun. Rəbb Rivqaya iki oğlu barədə nə dedi?
2. 27-34-cü ayələrdə baş verənləri öz sözlərinizlə qısaca danışın. Esav bir qab xörək üçün nə satdı? Satdığı şeyə necə münasibət göstərdi? (34-cü ayə)
3. Bu hekayədə iki qardaşın xasiyyətləri ilə bir az tanış oluruq. Sizcə, Yaqub necə insan idi?

**Yaqub adının mənası nədir?**

“Yaqub” topuq tutan deməkdir və eyni zamanda “fırıldaqçı” mənasına gəlir. Yaqubun tarixçəsini öyrənərkən adının xasiyyətini də əks etdirdiyini görəcəyik. Burada ilk dəfə Yaqubun başqasından öz xeyri üçün istifadə etdiyini oxuduq. Yaradılış 27-ci fəsildə qardaşını daha böyük və əhəmiyyətli bir işdə necə aldatdığını görəcəyik.

**Yaradılış 27:1-4-ü oxuyun.**

4. İshaq Esavdan nə xahiş etdi? İshaq ölməzdən əvvəl nə etməyə hazırlaşırdı? (4-cü ayə)

**İshaqın xeyir-duası nədən ibarət idi?**

İshaqın oğlu Esava vermək istədiyi xeyir-dua, o dövrün mədəniyyətində çox əhəmiyyətli idi – ilk doğulmuş oğul bu xeyir-dua ilə yeni ailə başçısı kimi təsdiq olunurdu. İshaqın xeyir-duasına eləcə də Allahın İbrahimə verdiyi, nəslini böyük millət edəcəyinə və Kənan torpağını ona verəcəyinə dair vədlər daxil idi. Yaradılış 27:5-17-dən öyrəndiyimiz kimi, İshaqın xahişini eşidən Rivqa Yaqubu öyrətdi ki, atasını aldatsın və ata xeyir-duası Esava deyil, Yaquba verilsin. Xeyir-dua haqlı olaraq Esava verilməliydi, çünki Esav böyük qardaş idi. Lakin oğlanlar doğularkən Allah demişdi ki, böyük qardaş kiçik qardaşa qulluq edəcək. Yaqub, həyatının bu dövründə Allahın bütün xalqlara vəd etdiyi xeyir-duanı çatdıracaq şəxs olmağa heç də yaxşı namizəd kimi görünmür. Yaqubun həyatını öyrənməyə davam etdikcə Allahın Yaqubu cürbəcür vəziyyətlərə salaraq ona Öz yollarını öyrətdiyini görəcəyik.

**Yaradılış 27:18-41-i oxuyun.**

5. İshaqın Yaquba verdiyi xeyir-duanı öz sözlərinizlə qısaca danışın. (28-29-cu ayələr)
6. Esav ilk oğulluq haqqını (yəni ilk doğulmuş oğul olaraq daha böyük mirası əldə etmək haqqını) bir qab xörəyə satanda, buna heç təəssüflənməmişdi. Bu dəfə isə başqa cür oldu.

   34 və 41-ci ayələrə təkrar baxın. Esav bu dəfə qardaşının onu aldatmasına necə reaksiya verdi?

*Yaqub Rivqanın köməyi ilə dayısı Lavanın yanına göndərilir. Yolda bir gecə Allah ona röyada danışır. Burada ilk dəfə Allahın Yaquba danışdığı barədə oxuyuruq.*

**Yaradılış 28:10-22-ni oxuyun.**

7. Yaqubun röyada gördüklərini təsvir edin. 13-15-ci ayələri təkrar oxuyun. Allah Yaquba nə dedi?

*Diqqət yetirin ki, Allah Yaqubun atası İshaqa və babası İbrahimə verdiyi vədləri Yaquba təkrarlayır. Bu adamlardan heç biri hələ vədlərin yerinə yetdiyini görməmişdi: ailələri hələ də kiçik idi, onlar hələ də vəd olunmuş torpaqda gəlmə idilər və köçəri həyat sürürdülər. Lakin Allah onlarda iman axtarır. Onlar, sübut olmasa belə, Allaha inanacaqlarmı?*

8. Yaqub Allahın vədlərinə necə cavab verdi? (Bax: 16-22-ci ayələr)

9. Sizcə, niyə Yaqub qorxmuşdu? (17-ci ayə) Yaqub Rəbbi öz Allahı kimi qəbul etməzdən əvvəl nəyin həyata keçdiyini görmək istəyir? (20-21-ci ayələr).

**Allah Yaquba Özünü tanıdır**

Xatırladaq ki, Yaqubun yaşadığı Kənan torpağının sakinləri yalançı allahlara sitayiş edən bütpərəstlər idi. Yaqubun özü də Rəbbi tanımırdı, yalnız atasının və babasının danışdığı hekayələrdən Onun haqqında bilirdi. Rəbb, İbrahimə və İshaqa bir neçə dəfə danışmışdı. İndi də həyatının böhranlı bir anında, Rəbb Yaquba görünmək qərarına gəldi. Yaqub ata evini tərk edib yad ölkəyə gedirdi. Yəqin ki, ürəyində böyük narahatlıq var idi.

Yaqub yalnız olduğunu düşünür, lakin gecənin qaranlığında Allahın mələklərini görür və Rəbb ona göydən danışır. Bu röyasında Yaqub Allahın həqiqətən var olduğunu və onunla birlikdə olduğunu dərk edir. Rəbb İbrahimə və İshaqa verdiyi böyük vədləri Yaquba da danışır. Ancaq Yaqubun cavabı şərtlidir. Yaqub deyir ki, Rəbb bəzi şeyləri etsə, onda Yaqub da Onu öz Allahı adlandıracaq. Yaqub Allahın onunla olduğunu və ona danışdığını anlayır, amma atalarının Allahına tamamilə ümid bağlamağa hələ hazır deyildir. Allaha tamamilə təslim olması üçün Yaqub hələ illər uzunu dəfələrlə sınamalıdır.

## *Bu bizim üçün nə məna daşıyır?*

**Tətbiq və Dua**

Yaqubun atası İshaq və babası İbrahim iman adamları idi. Yaradılış 15:6-da yazılıb ki, İbrahim, illər keçdikcə Allahın vədlərinin həyata keçdiyini görməsə belə, bu vədlərə inandığı üçün saleh sayılmışdır. Yaqubun ruhani irsi belə idi. Buna baxmayaraq, Yaqub imana gəlməzdən əvvəl Allahın sədaqətinə dair bir sübut əldə etmək istəyirdi.

Aşağıdakı ayələri oxuyarkən öz imanınızı düşünün. Siz daha çox İbrahimə bənzəyirsiniz, yoxsa Yaquba?

**İbranilərə Məktub 11:1-i və 11:6-nı bir neçə dəfə oxuyun.**

Müəllif bu ayələrdə imanın nə olduğunu deyir.

1) Allahın Kəlamına və vədlərinə iman etməyin nə mənaya gəldiyini öz sözlərinizlə danışın.


Mündəricat

2) Allahın Öz Kəlamında bütün ardıcıllarına verdiyi hansı vədləri vardır? (bir neçəsini deyin) Allahın Kəlamında, çətin zamanlarda sizə güc verən bir vəd varmı? Varsa, qrupla bölüşün.

3) Gələcək həftələrdə imanınızın necə artmasını istəyirsiniz?

İndi bu haqda Allahla danışmaq üçün bir az vaxt ayırın.

## Növbəti dərsdən əvvəl Yaradılış 29-36-nı oxuyun.

**Bu fəsillərin hamısını oxuya bilməsəniz, heç olmasa 29:14-30-u, 30:25-43-ü, 31:1-13-ü, 32:1-12 və 22-32-ni və 33-cü fəslin hamısını oxuyun.**

# 10. Yaqub: Seçilmiş Və Allahdan Xeyir-Dua Almış Adam

## *2-ci hissə, Yaradılış 29-35*

**Müzakirə üçün suallar**

Əvvəlki dərsimizdə oxuduğumuz, Yaqubun qardaşını aldatması haqqındakı iki əhvalatı qısaca danışın. Niyə Yaqub dayısının yanına qaçmağa məcbur oldu? Yaqubun yolda gördüyü röyanı təsvir edin. Allah Yaquba nələri vəd etdi? Bəs Yaqub Allaha nə vəd etdi?

**Giriş**

Yaqub dayısı Lavanın evinə çatır və Lavanla evindəkilər onu xoş qarşılayırlar. Daha sonra Yaqub dayısının hiyləsindən əziyyət çəkir. Allah Yaqubun qardaşı ilə rəftar etdiyi kimi bir rəftar görməsinə yol verir.

**Yaradılış 29:14-30-u oxuyun.**

1. Yaqubun bu ayələrdə necə aldadıldığını təsvir edin. Lavan niyə Rəhiləni bacısından əvvəl ərə verə bilmədiyini söylədi? (26-cı ayə)
2. Yaqub Rəhiləyə görə cəmi neçə il zəhmət çəkdi? 20-ci ayədə Rəhiləyə məhəbbəti haqqında nə yazılıb?

*Yaradılış 29:31-30:34, Yaqubun övladlarının doğulmasından bəhs edir (daha sonra doğulan Binyamindən başqa). Yaqubun iki arvadı və eləcə də ona arvad olaraq verilən iki qarabaşı arasındakı rəqabət haqqında təklikdə oxuya bilərsiniz. Axırda Yaqub qərara gəlir ki, vətəninə qayıtmaq zamanı gəlib çatıb. Bu dəfə Lavan onu bir daha aldadır.*

**Yaradılış 30:25-36-nı oxuyun.**

3. Allah Yaquba görə Lavana necə xeyir-dua verdi? (27 və 29-30-cu ayələr)
4. 32-36-cı ayələrdə Lavanın Yaqubu necə aldatdığını qısaca təsvir edin.
5. Keçmişdə Yaqub həmişə istədiyini hiylə ilə əldə etməyə müvəffəq olardı, indi isə onun özünə qarşı hiylə işlədildi və o aldadıldı. Sizcə, Yaqub nə hiss etdi?

   Sizcə, Yaqubun qüruruna nə oldu?

*Yaqub Lavan üçün işləməyə davam edir və Allah ona xeyir-dua verir – Lavanın hiylələrinə baxmayaraq, onun çoxlu qoyunları və keçiləri var. (Yaradılış 30:37-43) Yaqub dayısı üçün 20 il işlədikdən sonra Allah ona deyir ki, ata evinə qayıtmaq zamanı gəlib çatıb. 31-ci fəsildə Yaqubun*

*arvadı, uşaqları, qulları və böyük sürüləri ilə Lavandan necə qaçdığını təklikdə oxuya bilərsiniz. Ata evinə qayıdan Yaqub yolda qardaşı Esavın yaxınlaşdığından xəbər tutur.*

**Yaradılış 32:3-12-ni oxuyun.**

6. Yaqub Esavın onu qarşılamağa gəldiyini eşidəndə bu xəbərə reaksiyası necə oldu? (7-ci ayə)
7. Yaqubun qardaşının xeyir-duasını oğurlayıb ata evindən qaçmağa məcbur olmasından iyirmi il keçmişdi. O vaxt Yaqub elə bil qardaşını idarə edə bilirdi. 4-5-ci ayələri təkrar oxuyun. Yaqubun qasidlərlə qardaşına göndərdiyi sözlərdən münasibətinin necə dəyişdiyini görürsünüz?
8. İndi Yaqubun Allaha etdiyi duanı təkrar oxuyun. (9-12-ci ayələr) Bu duada Yaqubun özünü aşağı tutduğuna dair hansı əlamətləri görürsünüz? (Xüsusilə 10-cu ayəyə baxın)

   Yaqub Allaha hansı vədlərini xatırladır? (9 və 12-ci ayələr)

*Yaqub qardaşına çoxlu hədiyyələr göndərir. Onunla üz-üzə gələcəyi vaxtı həyəcanla gözləyərkən, gecə qeyri-adi şəkildə Allahla rastlaşır.*

**Yaradılış 32:22-32-ni oxuyun.**

9. Yaqubun daha sonra Rəbb olaraq tanıdığı bir kəslə rastlaşmasını təsvir edin. (30-cu ayə) O adam Yaquba nə etdi? (25-ci ayə) Bu, Yaqubun özünü daha da aşağı tutmasına necə kömək etdi?
10. Yaqub o adamdan nə istədi? (26-cı ayə) O adamın Yaquba verdiyi yeni ad nə idi? Yaqubun yeni adının mənası "Allahla güləşən"dir. Sizcə, bu ad Yaquba uyğun gəldimi? Cavabınızı izah edib.

**Yaradılış 33-cü fəslin hamısını oxuyun.**

11. Yaqub qardaşının xeyirxah rəftarına layiq olmadığını bilirdi. O, Esava necə yaxınlaşdı? (3-cü ayə) Esav buna cavabən nə etdi? (4-cü ayə)

    Sizcə, Esav Yaqubu bağışlamışdımı? Fikrinizi izah edin.

*Yaqub Esavla qarşılaşandan sonra Allah ona əmr edir ki, iyirmi il ondan əvvəl Allahın ona ilk dəfə Özünü tanıtdığı yerdə - Bet-Eldə çadır qursun.*

**Yaradılış 35:1-3 və 6-15-i oxuyun.**

12. Yaqubun iyirmi il ondan əvvəl dayısıgilə gedərkən yolda ilk dəfə Bet-Elə gələndə Allaha etdiyi duanı təkrar oxuyun. (Yaradılış 28:20-22)

İndi Yaradılış 35:3-ü təkrar oxuyun. Son iyirmi ildə Yaqubun başına gələnlərin hamısını düşünün. Allah Yaquba verdiyi vədi necə yerinə yetirdi?

Yaqub Allahın sədaqətinə necə cavab verdi? (3 və 6-7-ci ayələr)

13. Allah Yaqubun atalarına verdiyi hansı vədi burada Yaquba təkrarladı? (11-12-ci ayələr)

Diqqət yetirin ki, Yaqub Allaha sitayiş etmək üçün qurbangah düzəltməyi təzəcə başlamışdı. Bu, onun dəyişildiyinə dair daha bir əlamətidir. Allah ona sadiq qalmışdı və Yaqub da iyirmi il əvvəl verdiyi sözün üstündə durdu: atalarının Allahı həmçinin *onun* Allahı oldu.

**Qurbangahın məqsədi nə idi?**

Yaradılış Kitabında İbrahim, İshaq və Yaqubun – hamısının qurbangahlar düzəltdiyini oxuyuruq. Onlardan sonra israillilər qurbangah düzəltməyə davam etdilər. Bəs bu qurbangahlar necə idi? Çox vaxt torpaqdan və ya daşdan düzəldilən düz meydançalar idi. İnsanlar müxtəlif məqsədlərlə qurbangah düzəldərdilər, amma başlıca məqsədi Allaha sitayiş etmək və özünü bütlərə deyil, Allaha həsr etmək idi. Qurbangahlar həmçinin Allahın vədlərinə, qorumasına və təminatına görə şükür etmək üçün düzəldilərdi. Qurbangahda heyvanlar (çox vaxt yandırılaraq) qurban verilərdi və tüstü Allaha qalxardı. Daha sonra Çıxış Kitabında Allah günahın bağışlanması üçün heyvanların qurban olaraq təqdim edilməsini əmr etdi.

**Niyə məsihçilər qurbangah düzəltmirlər?**

İbranilərə Məktubun müəllifi "Bizim bir qurbangahımız var" – deyir, ancaq bu qurbangah, Əhdi-Ətiqdəki qurbangahlar kimi deyildir. (İbranilərə 13:10-15) Əhdi-Ətiqdə heyvanların qurban olaraq təqdim olunması heç də kamil qurban deyil idi. Lakin çarmıxdakı qurbanı insan deyil, Allah verdi. Allah Öz Oğlunu bizə görə kamil bir qurban olaraq təqdim etdi. İsa, "dünyanın günahını aradan götürən Allah Quzusu"dur. (Yəhya 1:29) İmanlılar həmişə bu qurbangahın – İsanın çarmıxının önündə səcdə edirlər. Bu qurbangah fiziki bir yer deyil, ürəyimizdəki xüsusi ruhani yerdir ki, orada biz Allahın bizim uğrumuzda etdiyi işi yada salırıq. Biz hər yerdə səcdə edə bilərik – nə fiziki bir qurbangaha, nə də hansısa xüsusi bir dağa və ya şəhərə ehtiyacımız var. Hər yer bizim üçün ibadət yeri ola bilər (Bax: Yəhya 4:19-24). Biz heyranedici lütfünə, məhəbbətinə görə İsa vasitəsilə Allaha həmd və şükür qurbanı təqdim edirik; və bu çarmıxın önündə hər gün təkrar-təkrar həyatımızı ona həsr edirik.

## *Bu bizim üçün nə məna daşıyır?*

**Tətbiq və Dua**

Yaqubun tarixçəsini öyrəndikcə görürük ki, həyatının dolanbaclı yollarında Allah həmişə onunla birlikdə olmuşdur. Allah həmçinin onu dəyişdirib mömin adama döndərmək üçün həyatında dayanmadan işləyirdi.

Əhdi-Cədiddə həvari Paul Filipidəki imanlılara yazdığı Məktubunda bundan danışırdı.

**Filipililərə 1:6-nı oxuyun.**

1) Bu ayəni təkrar yavaşca oxuyun və mənasını anlamaq üçün bir neçə dəqiqə düşünün.
2) Siz İsaya Xilaskarınız olaraq iman gətirəndə, İsa sizi Öz surətinə dəyişdirmək üçün daxilinizdə işləməyə başladı. O vaxtdan bəri Allahın sizi dəyişdirmək üçün həyatınızda necə işlədiyini görmüsünüz?
3) Gələcək həftələrdə və illərdə Allahdan həyatınızda hansı dəyişiklikləri görmək istəyirsiniz?
4) İndi Allahla bu haqda danışmaq üçün bir az vaxt ayırın.

## Növbəti dərsdən əvvəl Yaradılış 37-ci fəsli və 39:1-6-nı oxuyun.

# 11. Yusif: İman Edən Və Bağışlayan Adam

## *1-ci hissə, Yaradılış 37 və 39:1-6*

**Müzakirə üçün suallar**

Əvvəlki dərsi yada salın. Niyə Yaqub ata evini tərk edib dayısıgilə getdi? O, evindən uzaq olarkən necə dəyişildi? Allah, İbrahimə və İshaqa verdiyi hansı vədləri İshaqa təkrarladı? Allahın Özünü Yaquba necə tanıtdığını danışın.

**Giriş**

Bu dərsdə biz Yaqubun on iki oğlundan biri olan Yusifin heyrətamiz tarixçəsinin ilk hissəsini nəzərdən keçirəcəyik. Yaqub, arvadları, uşaqları və çoxlu sürüləri ilə ata yurduna qayıtdı. Bu dərsdə və bundan sonrakı iki dərsdə Allahın Öz gözəl planını necə inanılmaz şəkildə həyata keçirməyə davam etdiyini görəcəyik.

**Yaradılış 37:1-11-i oxuyun.**

1. Qardaşları niyə Yusifə nifrət etdilər? (2-4-cü ayələrdə bunun iki səbəbi verildi)
2. Yusifin 6-cı və 9-cu ayədə bəhs edilən iki yuxusunu təsvir edin. Qardaşları onun bu yuxularına necə reaksiya verdilər? (8 və 11-ci ayələr) Atasının reaksiyası necə oldu? (10-cu ayə)

   Siz qardaşlarının yerində olsaydınız, necə reaksiya verdiyinizi düşünürsünüz?

*Yaqubun ailəsi çadırda yaşayan, böyük sürülərini otaran köçəri bir ailə idi. Günlərin birində Yusifin qardaşları evdən uzaq bir yerdə sürülərini otarırdılar. Yaqub Yusifi qardaşlarının yanına göndərdi ki, salamat olub-olmadıqlarını və heyvanlarının vəziyyətini öyrənsin. (Yaradılış 37:12-17)*

**Yaradılış 37:18-24-ü oxuyun.**

3. Qardaşlar Yusifi necə adlandırdılar? (19-cu ayə) Onu niyə belə adlandırdılar?
4. Ona nə etməyi qərara aldılar? (20-ci ayə) Sizcə, onlar ürəklərində Yusifə qarşı hansı hissləri bəsləyirdilər?

   Yusifi ölümdən xilas edən kim idi? Planı nə idi?

**Yaradılış 37:25-36-nı oxuyun.**

5. Qardaşlar 25-ci ayədə nə gördülər? O, haraya gedirdi? Nə üçün? (25-ci ayə)

   Qardaşlar Yusifin başına nə iş gətirdilər? (27-28-ci ayələr)

Qardaşlar atalarını necə aldatdılar? (31-33-cü ayələr) Atalarının reaksiyası necə oldu? (34-35-ci ayələr) Yaqubun hiss etdiyi kədəri təsəvvürünüzə gətirin.

6. Misirdə Yusifin başına nə gəldi? (36-cı ayə)

7. Yaradılış 37-ci fəsildəki hadisələri oxuyanda, münasibətlərində çoxlu problemlər olan bir ailəni görürük. Ailənin ayrı-ayrı üzvlərinin aşağıda sadalanan səhv münasibətlərinin faciəyə necə səbəb olduğunu müzakirə edin.

    - Yaqubun Yusifə xüsusi rəğbət bəsləməsi
    - Yusifin qardaşları ilə yetkin bir adam kimi rəftar etməməsi
    - Qardaşların Yusifə qarşı paxıllığı və nifrəti
    - Qardaşların öz günahını atalarından gizlətmək üçün məkrli planı

    Bu gün buna bənzər şeylər ailələrdəki münasibətləri necə xarab edir?

**Yaradılış 39:1-6-nı oxuyun.**

8. Yusif kimin evinə satıldı? (1-ci ayə)

    Niyə Yusif bu qədər uğurlu oldu? (2-3-cü ayələr)

    3-6-cı ayələrə baxın. Yusifin uğurlarına Potifarın reaksiyasını müzakirə edin. Yusifə Potifarın evində hansı vəzifə verildi?

**Yusifin vəziyyətini düşünək.**

Atasının sevimli oğlu olduğu halda ata evindən uzaqlaşdırılması, quyuya atılması, sonra da uzaq bir ölkədə kölə olaraq satılmasının Yusifə nə qədər çətin olduğunu müzakirə edin. O vaxt hələ 17 yaşında olduğunu yadınızda saxlayın. Sizcə, o necə emosional ağrı hiss edirdi?

Sizcə, ruhdan düşmədən gecə-gündüz sədaqətlə ağasına qulluq etmək Yusif üçün asan idimi? Bu çətin zamanda Allahın Yusiflə birlikdə olduğunu necə anlayırıq? Bu sualları bir neçə dəqiqə müzakirə edin.

9. 2-6-cü ayələri təkrar nəzərdən keçirin. Yusifin işinə və ya ağasına münasibəti haqqında heç nə yazılmayıb. Bu ayələrdən Yusifin necə bir qul olduğunu güman edirsiniz?

    Biz bu dünyada ədalətsiz rəftar gördüyümüz və ya əziyyət çəkdiyimiz bir vəziyyətə düşəndə niyə sədaqətlə başqalarına və Allaha xidmətimizi davam etdirməliyik?

Mündəricat

**Yusifin onu incidənlərə qarşı münasibəti necə idi?**

Başqalarının ona qarşı nifrətinə görə qulluğa satılmış Yusif buna necə reaksiya verəcəyinə qərar verməli idi. Tarixçəsinin bu hissəsində Yusifin nə düşündüyü təsvir olunmur. Qardaşlarına qarşı pis fikirləri, qəzəbi olmuşdumu? Ruh düşkünlüyündən və ya məyusluqdan əziyyət çəkmişdimi? Arada həyatdan bezirdimi? Bilmirik. Bunlar olubsa, Yusif bu çətinliklərə qalib gəlmişdir. Həyatının sonarkı hissəsində qardaşlarına qarşı kin saxlamadığını görürük.

## *Bu bizim üçün nə məna daşıyır?*

**Tətbiq və Dua**

Yusifdən sonra əsrlər keçmiş, həvari Paul qullara nəsihət verdi. Onun bu nəsihəti bu gün başqalarının rəhbərliyi altında işləyən hər birimiz üçün hələ də aktualdır, xüsusilə ağır xasiyyətli və ya ədalətsiz bir rəhbər üçün çalışanlara son dərəcə faydalıdır; eləcə də ailəmizdə yaranan vəziyyətlərdə bundan yaxşı məsləhət ala bilərik. Evimizdə, ailəmizdə ədalətsiz, həddən artıq tələbkar insanlar varsa, bu ayələr bizi ruhlandıra bilər.

**Efeslilərə 6:5-8-i oxuyun.**

1) 5, 6 və 7-ci ayələrə əsasən, qul ağası üçün necə çalışmalıdır?

   Qul kimi həqiqi Sahibi olaraq qəbul etməlidir?

2) Öz həyatınızı düşünün. Siz evinizdə və ya iş yerinizdə Allah üçün can yandırırsınız, yoxsa təkcə insanları razı salmağa çalışırsınız?

   Siz işinizi sevinclə edirsiniz, yoxsa tez-tez şikayət edirsiniz?

   Siz arada kömək etmək xatirinə əlavə iş edirsinizmi, yoxsa sizdən tələb edən minimumu etməklə kifayətlənirsiniz?

3) Allahın hər şeyi gördüyünü və hər kəsə gördüyü işin əvəzini verəcəyini dərk etmək sizə başqalarına daha yaxşı bir xidmətçi olmaqda necə kömək edə bilər?

4) Sizcə, işinizə yaxud həyatınızda yaranan bir vəziyyətə olan münasibətinizdə nə dəyişilməlidir? İndi bu haqda Allahla danışmaq üçün vaxt ayırın.

## Növbəti dərsdən əvvəl Yaradılış 39-41-ci fəsilləri oxuyun.

# 12. YUSIF: İMAN EDƏN VƏ BAĞIŞLAYAN ADAM

## *2-ci hissə, Yaradılış 39:7-41:57*

### Müzakirə üçün suallar

Əvvəlki dərsi yada salın. Niyə qardaşları Yusifə nifrət etdilər? Onun başına nə iş gətirdilər? Yusif Misirdə kimə satıldı? Allah Yusifə Misirdə necə xeyir-dua verdi?

### Giriş

Yusif qul olmasına baxmayaraq hörmətli və yüksək vəzifəyə gəldi. Bu dərsdə biz Yusifin ədalətsizliyə uğrayaraq tezliklə bu vəzifədən uzaqlaşdırıldığını görəcəyik. Bununla belə, Yusif hələ də həyatı və əməlləri ilə Allahı şərəfləndirən bir adam qaldı.

### Yaradılış 39:7-23-ü oxuyun

1. Potifarın arvadı Yusifi necə sınağa çəkdi? (7 və 10-cu ayələr) Bəs Yusif bu sınaqlara necə reaksiya verdi? (8-9-cu ayəyə)

**"Mən necə bu böyük pisliyi edib Allahın önündə günaha bata bilərəm?" (Yusifin Potifarın arvadına dediyi söz)**

Yusif elə bilmişdi ki, bu sözü yalnız Potifarın arvadının qulaqları eşidəcək. Minlərlə il keçəndən sonra insanların onun bu sözlərini oxuyacaqları ağlına gəlməzdi. Yusifin davranışından Müqəddəs Kitabda "**Rəbb qorxusu"** adlanan bir şeyi öyrənirik. Rəbb qorxusu dedikdə, Allaha yaxınlaşa bilməyəcəyimiz qədər Ondan qorxmağı nəzərdə tutmuruq. Çarmıxda ölərkən bizə qarşı böyük məhəbbətini göstərən Məsih vasitəsilə Allahın hüzuruna cəsarətlə daxil ola bilərik. Bununla belə, biz, məsihçilər heç vaxt "Allah qorxusu"nu itirməməliyik.

Müqəddəs Kitabda Allah qorxusunun çoxlu açıqlamaları verilir. Bunlardan biri, Süleymanın Məsəlləri 8:13-dədir: "Rəbb qorxusu pisliyə nifrət etməkdir. Lovğalığa, təkəbbürə, pis yola, hiyləli dilə nifrət edərəm". Rəbb qorxusu eləcə də Allahın etdiyimiz hər işi gördüyünü dərk etməkdən yaranır. Biz əməllərimizə görə Allahın önündə cavabdeh olduğumuzu anlayırıq və ən vacibi, Onun adına ləkə gətirmək istəmirik. Yusif Allahdan qorxan adam idi, odur ki, Potifarın arvadı ilə əlaqədən həzz almaq fikrini qəti surətdə rədd etdi. Yaradılış 39:9-10-da belə yazılıb: "Qadın hər gün bunu Yusifə

deyirdi, Yusif isə onunla yatmağa, hətta birgə olmağa razı olmurdu". Əlbəttə, o bununla ağası Potifara qarşı günah etməyi rədd edirdi. Eyni zamanda Yusifin bu işə "Allahın önündə günah" deyirdi.

Saleh həyat sürən adam, mükafatını heç də həmişə yaxın gələcəkdə əldə etməz. Yusifin tarixçəsi də bunu göstərir.

2. Yusif necə haqsız yerə təqsirləndirildi? 11-20-ci ayələrdə baş verən hadisələri təsvir edin.
3. Yusifin həyatı bir müddət nisbətən düzəlmişdi, indi isə o, daha çox ədalətsizliyə uğrayacağı bir dövrə girdi. Gəlin bir az Yusifin nə hiss etdiyini təsəvvür etməyə çalışaq. Əvvəlcə qardaşlarının nifrətinə, zorakılığına məruz qalmış, qulluğa satılmışdı. Sonra ağası Potifardan xoş rəftar, hətta hörmət görəndə gələcəkdə bir ümid işığının parladığını görmüşdü. Ancaq axırda haqsız yerə təqsirləndirilərək zindana atılması ilə təzədən pis vəziyyətə düşdü.

   Sizcə, Yusif zindana atılandan sonra birinci gün orada nə düşünürdü?

   Siz ədalətsiz rəftara məruz qalanda nə hiss edirsiniz? Allaha qəzəblənirsinizmi? Gələcəyə olan ümidinizi itirirsinizmi? Özünüzü məyusluqdan necə qoruya bilərsiniz?
4. Allah Yusifə zindanda necə xeyirxahlıq göstərdi? (21-23-cü ayələr)

**Yaradılış 40:1-4-ü oxuyun.**

5. Bu ayələrdə Yusiflə birlikdə zindana kimlər atıldı?

*Bu iki adam zindanda ikən həyəcanlı yuxular görürlər və Yusif onlara yuxularını yozur. Saqinin vəzifəsinə qayıdacağını, çörəkçinin isə edam ediləcəyini bildirir. Yuxular Yusifin dediyi kimi çin çıxır. (Yaradılış 40:5-13)*

**Yaradılış 40:14-15 və 20-23-ü oxuyun.**

6. Yusif saqidən zindandan çıxandan sonra onun üçün nə etməsini xahiş etdi? (14-cü ayə)

   Saqi bunu etdimi? (23-cü ayə)

**Yaradılış 41:1-8-i oxuyun.**

7. Saqi zindandan çıxandan sonra nə qədər vaxt keçdi?

Gündən-günə saqinin onu yada salmasını gözləyən Yusifin yerində özünüzü təsəvvür edin, Yusifin nə hiss etdiyini, nə halda olduğunu müzakirə edin.

Sizcə, Allah Yusifə o müddət ərzində nə öyrədirdi?

8. Fironun gördüyü iki yuxunu qısaca təsvir edin. (1-7-ci ayələr) Sehrbazlarından kimsə bu yuxularını yozmağa müvəffəq oldumu? (8-ci ayə)

*Axır ki, saqi Yusifi yada salır, özünün və çörəkçinin yuxularını necə düzgün yozduğunu xatırlayır; o zaman saqi vədini yerinə yetirib firona Yusifdən danışır. Firon Yusifin gətirilməsini əmr edir və yuxularını ona danışır. Yusif deyir ki, Allah etmək istədiyi işi firona bildirib. (Yaradılış 41:9-24)*

**Yaradılış 41:25-36-nı oxuyun.**

9. Yeddi bəslənmiş inək və yeddi yaxşı sünbül nəyə işarə edir? (26 və 29-cu ayələr)

   Yeddi arıq inək və yeddi cılız sünbül nəyə işarə edir? (27 və 30-cu ayələr)

   Yusif firona nə etməyi məsləhət gördü? (33-36-cı ayələr)

**Yaradılış 41:37-45-i oxuyun.**

10. Yusifin vəziyyəti necə bir an içində dəyişdi? Misirdə yeni vəzifəsi nə oldu? (41-ci ayə)

    Sizcə, Yusifin zindandakı məsuliyyətləri necə bu mühüm işinə hazırlaşmasına şərait yaratmışdı? (Qayıdıb Yaradılış 39:22-23-ü təkrar oxuyun)

**Yaradılış 41:46-57-ni oxuyun.**

11. Allah Yusifə necə xeyir-dua verdi?
12. Yusif bir çox ölkələrin adamlarına necə xeyir-dua verdi? (57-ci ayə)

## *Bu bizim üçün nə məna daşıyır?*

### Tətbiq və Dua

Bu dərsdə biz Yusifin Potifarın arvadı ilə əxlaqsız hərəkət etmək sınağına qarşı durduğunu, qadının onu dəfələrlə əxlaqsızlığa cəlb etməyinə baxmayaraq hər dəfə ona rədd cavabı verdiyini görürük. Əhdi-Cədiddə həvari Paul bizə cinsi əxlaqsızlıqla bağlı olaraq bir neçə dəfə xəbərdarlıq edir.

**1-ci Korinflilərə 6:18-i və 2-ci Timoteyə 2:22-ni oxuyun.**

1) Paul cinsi şəhvətlə sınağa çəkilərkən nə etməyi öyrədir?

Yusif Yaradılış 39:9-12-də bunu necə etdi?

2) Sınağın özü günah deyildir. Amma əgər biz günah etmək fikrinə belə, yer versək, onu düşüneceyik və arzulayacağıq, onda bu günaha yox demək bizə çox çətin olacaq.

Bu sınaq zamanı Yusifin sözləri və əməlləri, günahdan qaçmaq üçün əlindən gələni etdiyini necə sübut edir? (Yaradılış 39:8-10-u təkrar nəzərdən keçirin).

3) Yusifin saleh iş gördüyünə görə zindanda iztirab çəkdiyini görürük. Belə ədalətsizliyə dözmək çətindir. Lakin zindanda belə, Allah ona xeyir-dua verdi! İndi düşünün, Yusif sınağa düşüb günah etsəydi nə baş verəcəkdi? Çox güman ki, gec və ya tez Yusif o işin üstündə tutulacaq və zindana atılacaqdı. Lakin sizcə, Yusif o halda Allahdan xeyir-dua alacaqdımı?

Yusifin nümunəsi sizi necə ruhlandırır?

**1-ci Korinflilərə 10:13-ü oxuyun.**

4) Üzləşdiyiniz sınaqları – təkcə cinsi şəhvət deyil, həyatınızda olan başqa cür sınaqları da düşünün. Bu ayə sınaqlarda günaha qarşı durmaq üçün sizi necə ruhlandırır?

İndi duaya bir az vaxt ayırın. Allahdan xahiş edin ki, sizə sınağa çəkilərkən çıxış yolu tapmağı öyrətsin.

## Növbəti dərsdən əvvəl Yaradılış 42-50-ci fəsilləri oxuyun.

**Bu fəsillərin hamısını oxuya bilməsəniz, heç olmasa 42-ci fəslin başlanğıcından 46:6-ya qədər və 50:15-26-nı oxuyun. Bu dəfə bir az daha çox oxuyacaqsınız, amma oxuyacağınız mətn gözəl və maraqlı və həmçinin Yusifin həyatını anlamaq üçün çox əhəmiyyətli olacaq.**

***Sevimlilər, sizə yalvarıram,***
***cana qarşı mübarizə aparan cismani ehtiraslardan uzaqlaşın. Çünki siz bu dünyada qərib və gəlməsiniz. İmanlı olmayanların arasında yaxşı həyat tərzi sürün ki, sizi pislik edən adamlar kimi təqsirləndirib böhtan atsalar da, yaxşı işlərinizi müşahidə edib Allahın onlara yaxınlaşdığı gündə Onu izzətləndirsinlər.***
***1 Peter 2:11-12***

# 13. Yusif: İman Edən Və Bağışlayan Adam

## *3-cü hissə, Yaradılış 42-50*

**Müzakirə üçün suallar**

Əvvəlki dərsi yada salın. Yusifin başına gəlmiş ədalətsiz işlərdən qısaca danışın. Niyə Yusif zindana atıldı? Zindandan necə azad oldu? Allah zindanda belə, Yusiflə birlikdə olduğunu necə göstərdi? Misir xalqı və qonşu xalqlar hansı təbii fəlakətdən əziyyət çəkirdilər? Yusif Misir xalqını bu çətin vaxtlara necə hazırlaşdırmışdı?

**Giriş**

Bu dərsdə Allahın, planının növbəti hissəsini həyata keçirmək, xalqını formalaşdıraraq onlara Öz yollarını öyrətmək məqsədilə fəal hərəkət etdiyini görəcəyik. Yadınıza salın, Allah Kənan torpağını irs olaraq İbrahimin nəslinə verəcəyini demişdi. İbrahimdən sonra üçüncü nəsil hələ o torpağın kiçik bir parçasına sahib idi. Allah vədini unutmamışdı, ancaq İbrahimin övladları hələ buna hazır deyil idilər. Onların qabağında hələ uzun yol var idi. Yaradılış 15:13-14-də Allah İbrahimə demişdi ki, nəsli 400 il boyunca yad ölkədə qərib olacaq. Bu dərsdə onların o yad ölkəyə necə köçüb məskunlaşdıqlarını görəcəyik.

*Yaqubun və 11 oğlunun (Yusifdən başqa) yaşadığı Kənanda, eynən Misirdəki kimi şiddətli qıtlıq başlayıb. Ailəsinin ərzaqa ehtiyacı olduğuna görə Yaqub oğullarından 10 nəfəri Misirə göndərir ki, taxıl satın alsınlar. Yalnız balaca oğlu Binyamini göndərmir. Niyə? Çünki sevdiyi arvadı Rəhilədən ona qoca yaşında doğulmuş ikicə oğlu var idi: Yusif və Binyamin. Rəhilə artıq vəfat edib və Yaqub Yusifi ölmüş hesab edir. Binyamini də itirmək fikri ona çox ağır gəlir. (Yaradılış 42:1-5)*

**Yaradılış 42:6-9-u oxuyun.**

1. Qardaşları Yusifin yanına gələndə, hər şeydən öncə nə etdilər? (6-cı ayə) Yusif ilə qardaşları bir-birini tanıdılarmı? (8-ci ayə) Yusifin dərhal nə yadına düşdü? (9-cu ayə)
2. Yusif onları nədə ittiham etdi? (9-cu ayə)

*Yusif qardaşları ilə sərt danışır, onları üç gün zindanda saxlayır.*

**Yaradılış 42:18-28-i oxuyun.**

3. Yusif, casus olmadıqlarını sübut etmələri üçün qardaşlarına nə əmr etdi? (19-20-ci ayələr) Onlar bu əziyyətlərə nəyə görə məruz qaldıqlarını düşündülər? (21-22-ci ayələr)

   Sizcə, niyə Yusif onların dediyini eşidəndə ağladı? (23-24-cü ayələr)

4. Yusif qardaşları ilə sərt rəftar etməsinə baxmayaraq, onlara necə xeyirxahlıq göstərdi? (25-ci ayə)

Sizcə, Yusif ürəyində qardaşlarına qarşı nə hiss edirdi?

**Qardaşlar özlərini təqsirkar hiss edirlər.**

Rolların necə dəyişdiyinə diqqət yetirin. Keçmişdə Yusiflə kobud rəftar edən, yalvarışlarına məhəl qoymayan qardaşlar bu dəfə Yusifin (o adamın Yusif olduğunu bilməsələr də) mərhəmətindən asılıdırlar, qorxu içindədirlər. Taxılla dolu çuvalları ilə evə qayıdanda görürlər ki, ərzaq üçün verdikləri pullar çuvallarına qoyulmuşdu. Buna görə oğruluq etməkdə ittiham ediləcəklərindən narahat olurlar. 21-22-ci və 28-ci ayələrdən aşkar olur ki, onlar Yusifə pislik edəndən sonra uzun illər boyunca təqsirkarlıq hissi ilə yaşamışdılar. Allahın onları cəzalandırdığını düşünürlər.

*Qardaşlar ataları Yaquba qayıdıb başlarına gələn hər şeyi danışırlar. Yaqub Binyaminin Misirə getməsinə icazə vermir. Şimon Misirdə zindanda qalır. Bir müddət keçəndən sonra ərzaqları tükənəndə, Yaqub oğullarından təkrar Misirə qayıdıb ərzaq almağı xahiş edir. Onlar da Binyaminsiz gedə bilməyəcəklərini deyirlər. Axırda Yaqub Binyaminin onlarla getməsinə razılıq verir və həmçinin Kənanın məhsullarından çoxlu nemətlər göndərir. Çuvallarına qoyulmuş pulları və daha çox ərzaq almaq üçün pulu da onlara verir. Qardaşlar Misirə gəlib-çatanda Yusif onları öz evinə aparır. (Yaradılış 42:29-43:17)*

**Yaradılış 43:18-i oxuyun.**

5. Qardaşları yenə təqsirkarlıq və qorxu hiss etdilər. Yusifin evinə niyə aparıldıqlarını düşündülər?

**Yaradılış 43:26-28-i oxuyun.**

6. Bu ayələrdə qardaşlar Yusifin önündə iki dəfə nə etdilər?

Yusifin o yuxuları gördüyü vaxtdan iyirmi iki il keçmişdi. Sizcə, Yusif o anda nə düşünürdü? Siz onun yerində olsaydınız, nə düşünərdiniz?

*Yusif balaca qardaşını görəndə hissiyyata qapılır. Qardaşları üçün süfrə açır və Binyaminə beş qat artıq yemək verir. Qardaşları bu dəfə yola çıxanda, verdikləri pullar yenə çuvallarına qoyulur. Yusif öz şəxsi kasasının Binyaminin çuvalına pulu ilə birlikdə gizlicə qoyulmasını əmr edir. Qardaşlar hələ çox uzaqlaşmamış, Yusif ev nəzarətçisini onların dalınca göndərir ki, kasasını axtarsın. Kasanın Binyaminin çuvalında tapılması*

*qardaşları dəhşətə gətirir. Qardaşlar böyük kədərlə Yusifin evinə qayıdırlar. Yusif deyir ki, Binyamin onun qulu olaraq qalmalıdır. Yəhuda Yusifə yalvarır ki, onu (Yəhudanı) Binyamin əvəzinə qulu olaraq saxlasın. Axırda Yusif özünü saxlaya bilmir və qardaşlarına kim olduğunu deyir. (Yaradılış 43:29-44:34)*

**Yaradılış 45:1-15-i oxuyun.**

(Bu parça, bütün Müqəddəs Kitabda ən təsiredici yerlərdən biridir. Bu dərsi qrupda keçirsinizsə, bu parçanı iki nəfər oxuya bilər. Bir nəfər Yusifin dediyi sözləri hisslərini ifadə edərək oxusun. O birisi isə Yusifin dediyi sözlərdən başqa hissələri oxusun).

7. 5-7-ci ayələri təkrar oxuyun. Yusif həqiqətdə kimin onu Misirə göndərdiyini söylədi? O niyə Yusifi Misirə göndərmişdi?
8. Yusif özünü qardaşlarına tanıdarkən hönkürüb ağladı. Sizcə, niyə Yusif bu qədər emosional idi?
9. Yusifin anası Rəhilədən doğulmuş bircə qardaşı Binyamin də ağladı. (Qeyd: Binyamin çox gənc idi və qardaşlarının Yusifi satarkən yanında deyil idi. Çox güman ki, Yusifin başına gələnlərdən də xəbəri yox idi).

   Sizcə, o biri qardaşlar o anda nə düşündülər? (14-15-ci ayələr, bax həmçinin: 3-cü ayə)

   Sizcə, niyə onların inanmağı gəlmirdi ki, bu adam həqiqətən Yusifdir?
10. Yusif bu parçada bir dəfə də olsa "bağışlamaq" sözünü işlətməyib. Sizcə, o, qardaşlarını bağışladımı? Niyə belə düşünürsünüz?

   Yusif, başına gələn bütün pis işlərdə Allahın xeyirxahlığını necə gördü?

*Yusif artıq qardaşlarını Kənana göndərir ki, ataları Yaqubu, arvad-uşaqlarını Misirə gətirsinlər və qıtlıq sona çatanadək burada yaşasınlar. Onların qayğısına baxacağına söz verir. Firon da ən yaxşı torpağı onlara verəcəyinə söz verir. Beləcə (İsrail olaraq da tanınan) Yaqub, on iki oğlu və ailələri ilə Misir torpağında məskən salır. (Yaradılış 45:16-47:27)*

*Aradan on yeddi il keçmiş, Yaqub (İsrail) ölüm vaxtına yaxınlaşır. Yusifi yanına çağıraraq and içdirir ki, onu Kənanda, atalarının yanında basdırsınlar. Yaqubun bu hərəkəti imanını göstərir – Yaqub Allahın vəd etdiyi kimi bu torpağı həqiqətən onun nəslinə verəcəyinə inanır. Ondan sonra Yaqub Yusifin iki oğluna xeyir-dua verir və on iki oğlunun hər birinə də xeyir-dua verir. Yaradılış 50-ci fəsil, Yusiflə qardaşlarının böyük dəstə*

*adamla Misirdən vəd olunmuş torpağa gedib ataları Yaqubu orada dəfn etdiyindən bəhs edir. (Yaradılış 47:28-50:14)*

*Misirə qayıdandan sonra Yusifin qardaşları narahat olmağa başlayırlar.*

**Yaradılış 50:15-21-i oxuyun.**

11. Qardaşlar nə üçün qorxurdular? (15-ci ayə) Yusifə nə xəbər göndərdilər? (16-17-ci ayələr)

    Yusif bu xəbəri eşidəndə nə etdi? (17-ci ayə) Sizcə, niyə o məhz belə cavab verdi?

12. Qardaşlar Yusiflə üz-üzə gələndə nə etdilər və nə dedilər? (18-ci ayə)

    Sizcə, qardaşların bu hərəkəti və bu sözləri onların xasiyyətini necə göstərir? Sizcə, onlar pis işlərinə görə həqiqətən kədərlənmişdilərmi, yoxsa zəif vəziyyətdə qalıb Yusifdən qorxduqlarına görə belə etdilər?

    Sizcə, Yusifin onları bağışladığına inanmaqları nə üçün o qədər çətin idi?

13. 19-21-ci ayələrdə Yusifin onlara verdiyi cavabı təkrar oxuyun. Bu cavab, Müqəddəs Kitabda bağışlamanın ən gözəl nümunələrindən biridir. Yusifin, qardaşları tərəfindən satılandan bəri çox əziyyətlə nə öyrəndiyini müzakirə edin. Yusif, başına gələn bütün müsibətlərə görə nə hiss edirdi?

**Pislikdən necə yaxşılıq çıxa bilər?**

Yusif həyatında baş verən hadisələrə Allahın gözü ilə baxmağa öyrəşmişdi. O yalandan demədi ki, guya qardaşlarının ona qarşı bəslədiyi münasibət və onunla rəftarları düzgün idi. Lakin o anladı ki, Allah, insanların pis niyyətlə etdiklərini yaxşlığa çevirir. Yusifin bu yaxşılığı görməsi üçün uzun illər lazım oldu. O illər ərzində Yusif Allaha sadiq qaldı, gələcəyini Allaha əmanət etdi. Ədalətsiz rəftardan, tənhalıqdan, həbsdən, sıxıntıdan əziyyət çəkdiyi illər ərzində Yusif, insanların bir-birinə kinlə, nifrətlə, qəddarcasına davranmalarına baxmayaraq, Allahın məhəbbətinə güvənməyi öyrəndi. Onun qavradığı mühüm həqiqət bu idi: Allahla, öz-özü ilə və başqaları ilə sülh yaratmağın yolu, bütün ürəyi ilə bağışlamaqdan keçir.

Həvari Paul Romalılara Məktubunda bu barədə yazmışdır. Romalılara 8:28-i oxuyun. Təkrar oxuyun. Hər şeyi idarə edən Allah, həyatımızda və başqalarının həyatında olan pis işləri yaxşı işlərə çevirməyə qadirdir. Bəs siz, başınıza pis iş gələndə, Allaha güvənəcəksinizmi?

**Yaradılış 50:24-26-nı oxuyun.**

14. Yusifin bu ayələrdə qardaşlarına dediyi sözlər, Allahın əhddəki vədi həyata keçirəcəyinə inandığını necə göstərir?

Allahın əhddəki vədini birbaşa Yusifə söylədiyinə dair əlimizdə heç bir sübut olmasa da, həmin vədi atasından öyrəndiyindən şübhə yoxdur. İbranilərə Məktub 11:22-də yazılıb ki, Yusif, İbrahim kimi Allahın dediyini edəcəyinə iman edirdi.

## *Bu bizim üçün nə məna daşıyır?*

**Tətbiq və Dua**

**Romalılara 12:19-21-i oxuyun.**

1) Yusifin bu ayələrdə deyilənlərə əməl edən bir adam kimi necə gözəl nümunə olduğunu müzakirə edin.

2) Həyatınızda kiminsə sizə qarşı pislik etdiyi vaxtlar olubmu? Siz qisas almaq üçün plan qurmusunuzmu? Ürəyinizdə kin saxlamısınızmı? Yoxsa Allahın Özü istədiyi vaxt, məsləhət bildiyi kimi hər şeyi həll edəcəyinə inanmısınızmı?

   Əgər keçmişdə belə etmisinizsə, gələcəkdə nəyi fərqli edəcəksiniz?

3) Pisliyə yaxşılıqla qalib gələ bilmək üçün əməldə vacib olan işləri misallarla müzakirə edin.

4) Bu ayələrə əməl etmək bizə çox vaxt çətin gəlir. Bizimlə kin və qəddarlıqla rəftar edən adamlara qarşı xeyirxah davranmaq təbiətimizə uyğun deyil. Lakin biz imanlı kimi yadda saxlamalıyıq ki, daxilimizdə Müqəddəs Ruh yaşayır və O, zəif olduğumuz vaxt bizə kömək edəcəyini vəd etmişdir.

   İndi dua etməyə bir az vaxt ayırın. Düşmənlərinizə məhəbbət göstərmək üçün Allahdan lütf diləyin. Başınıza pis işlər gəlibsə, insanlar sizə pislik ediblərsə, indi bu haqda Allahla danışın.

## BÖYÜK TAPŞIRIQ…

**Əgər mümkünsə, növbəti dərsdən əvvəl Yaradılış Kitabının hamısını (1-50-ci fəsillər) bir daha başdan sona oxuyun. Yəqin ki, bu, 4-5 saat vaxt çəkər. Hamısını bir dəfəyə oxuya bilsəniz, yaxşı olar. Mümkün olmasa, 3-4 dəfəyə oxuya bilərsiniz. Hadisələri qavrayamayacağınız qədər sürətlə oxumayın, amma bir-iki ayəni dərindən düşünmək üçün də dayanmayın. Bu dəfə Kitaba dair "ümumi baxış"a nail olmaq üçün oxuyun, yəni bütün əhvalatların bir-birilə bağlılığını, əlaqəsini görməyə çalışın.**

**Bəlkə də kiçik qrup olaraq bir səhər və ya axşam (və ya iki dəfə) yığışıb Yaradılış Kitabını növbə ilə ucadan oxumaq sizə maraqlı ola bilər. Oxumaq istəyən və yaxşı oxuyan hər kəs bir dəfəyə bir fəsil oxuya bilər. Qulaq asanlar yuxuya getməsinlər və fikirləri dağılmasın deyə diqqətli olmalıdırlar!**

**Oxumağa bu qədər çox vaxt ayırmaq, fikrini cəmləşdirərək saatlarla oxumaq çətin ola bilər. Lakin bunun mükafatı böyük olacaq!**

# 14. Dünyanın Yaranmasından Yusifə Qədər Yaradılış Kitabına Ümumi Baxış

## *Yaradılış 1-50*

**Müzakirə üçün suallar**

Əvvəlki dərsi yada salın. Yusif qardaşlarına necə mərhəmət göstərdi? Qardaşlar niyə qorxurdular? Yusifin dediyinə görə, onu həqiqətən Kim Misirə aparmışdı? Nə məqsədlə aparmışdı?

**Giriş**

Əvvəlki dərsin sonunda verilmiş böyük tapşırığı yerinə yetirmisinizmi? Əgər yetirmisinizsə, demək, bu dərsə daha yaxşı hazırlaşmısınız. Bu dərs o biri dərslərdən fərqlənir. Bu dəfə bir-iki insanı və ya hadisəni nəzərdən keçirməyəcəyik, lakin Yaradılış Kitabından mühüm ibrət dərsləri almaq üçün ümumiyyətlə bütün Kitaba baxacağıq. Bu dərsi tələsmədən keçin! Hətta istəsəniz, bunu iki və ya üç hissəyə bölərək iki-üç dərs olaraq keçə bilərsiniz. Yaradılış Kitabından öyrəndiyiniz çoxlu gözəl həqiqətləri yada salmağa kifayət qədər vaxt ayırın.

**I. Yaradılış 1 və 2-ci fəsillər:**

1. Bu fəsillərdən dünyanın yaranması haqqında nə öyrənirik?
2. İnsanların yaranması haqqında nə öyrənirik?
3. Buradan öyrəndiyiniz həqiqətlər Allahın sizə olan məhəbbətinə, qayğısına inanmaq üçün sizi necə təşviq edir?
4. Bunlar Allahın bu dünya və hər insan üçün bir məqsədi olduğuna inanmağınıza necə kömək edir?

***Öz yerinə düzdüyün ay və ulduzları gördükdə deyirəm: «İnsan kimdir ki, onun haqqında düşünürsən? Bəşər oğlu kimdir ki, onun qayğısını çəkirsən?» Onu Allahdan bir az aşağı yaratdın, İzzət və əzəmət tacını onun başına qoydun, Əllərinin işləri üzərində onu hökmdar etdin. Hər şeyi onun ayağının altına qoydun. (Zəbur 8:3-6)***

***"Ey bizim Rəbbimiz və Allahımız! Sən izzət, şərəf və qüdrət almağa layiqsən. Çünki hər şeyi Sən yaratdın, hər şey Sənin iradənlə var olub yarandı." (Vəhy 4:11)***

**II. Yaradılış 3-cü fəsildən:**

1. Adəmlə Həvvanın itaətsizliyinin hansı nəticələri oldu? (7-8, 16-19 və 21-24-cü ayələr)

2. Bu gün dünyada gördüyümüz pisliklərin səbəbkarı Allahdırmı? Cavabınızı izah edin.
3. Allah Adəmlə Həvvanın eyibini örtmək üçün nə etdi? (21-ci ayə)
4. Allah bizim eyiblərimizi necə örtür?

***Budur, Sionda bir daş, seçilmiş, qiymətli bir guşədaşı qoyuram. Ona iman edən kəs əsla utandırılmaz. (1-ci Peter 2:6)***

**III. Yaradılış 4-9-cu fəsillərdən:**

1. İllər keçdikcə yer üzündəki insanların nə halda olduğunu təsvir edin. Allahın yaratdığı kamil məxluğa nə olmuşdu?
2. 6-7-ci fəsillərə əsasən, Allah bu vəziyyətə görə nə etdi?
3. Niyə Allah Nuhun həyatını qorudu? (Yaradılış 6:8, 9 və 22)
4. Bu fəsillər, Allahın niyə dünyanı mühakimə etdiyini anlamağınıza necə kömək edir? İndiki dövrdə yaşayan insanlar son məhkəmədə həlak olmamaq üçün, Nuh daşqından xilas olduğu kimi əbədi həlakdan xilas olmaq üçün nə etməlidirlər?

***Çünki Allah dünyanı elə sevdi ki, vahid Oğlunu verdi; bunu ona görə etdi ki, Ona iman edən hər kəs həlak olmasın, amma əbədi həyata malik olsun. (Yəhya 3:16)***

***Necə müəyyən edilmişdir ki, insanlar bir dəfə ölüb ondan sonra mühakimə olunsunlar, eləcə də Məsih bir çoxlarının günahını Öz üzərinə götürmək üçün bir dəfə təqdim edilmişdir və ikinci dəfə günahın öhdəsindən gəlmək üçün deyil, xilas gətirmək üçün Onu gözləyənlərə zühur edəcək. (İbranilərə 9:27-28)***

**YARADILIŞ 1-DƏN 11-Ə KIMI…**

…dünyanın yaranması və insanın itaətsizliyi haqqında öyrənirik. Günahın artdığını və Allahın daşqın vasitəsilə dünyanı mühakimə etdiyini görürük. Bununla bərabər, Yaradılış 3:15-də, insanların düşməni olan şeytanın gücünü məhv etmək üçün Allahın başlanğıcdan bəri bir planı olduğunu öyrənirik.

**YARADILIŞ 12-DƏN 50-YƏ KIMI…**

…Allahın böyük mərhəməti ilə bu planı həyata keçirməyə başladığını görürük. İbrahimi və nəslini Allahın seçilmiş xalqı olmağa dəvət etdiyini görürük. Bu dərsin qalan hissəsində İbrahimdən, İshaqdan, Yaqubdan və Yusifdən öyrəndiyimiz bəzi şeylərdən bəhs edəcəyik.

## V. İbrahim və İshaq

1. Yaradılış 12:1-3-də və eləcə də Yaradılış 15:1-5-də Allahın İbrahimə verdiyi vədi oxuyun. Niyə İbram Allahın nəzərində saleh sayıldı? (Yaradılış 15:6)

   İbrahim imanını necə göstərdi?

***İbrahim çağırılanda iman vasitəsilə itaətli olub irs alacağı torpağa getdi. O hara getdiyini bilməyərək yola çıxdı. İman vasitəsilə vəd edilmiş ölkədə bir qərib kimi məskunlaşdı. O eyni vədin həmvarisləri olan İshaq və Yaqubla birlikdə çadırlarda yaşadı. Çünki İbrahim memarı və banisi Allah olan bünövrəli şəhəri gözləyirdi. Sara özü sonsuz və yaşı ötmüş olduğu halda iman vasitəsilə nəsil yaratmaq üçün güc aldı, çünki vəd Edəni sadiq saydı. Buna görə də bir kişidən, artıq ölüdən fərqlənməyən birindən sayca göydəki ulduzlar qədər, dəniz kənarındakı qum kimi saysız-hesabsız nəsil törədi. (İbranilərə 11:8-12)***

   Biz bu gün Allahın nəzərində necə saleh sayılırıq?

***"Salehlik sayıldı" sözləri yalnız İbrahim üçün yazılmayıb; Rəbbimiz İsanı ölülər arasından Dirildənə iman etməklə saleh sayılacaq bizlər üçün də belə yazılmışdır. (Romalılara 4:23-24)***

2. Allahın İbrahimlə bağladığı əhdi təsvir edin. (Yaradılış 17:1-10)

*Əhdi-Ətiqin qalan hissəsində Allah İbrahimin nəslinə – İsrail xalqına Allahla əhd bağlamış xalq kimi yaşamağı öyrətməyə davam edəcək. Onlara Allahın xalqı kimi necə yaşamağı və yeganə Allah kimi Ona necə ibadət etməyi öyrədəcək.*

3. Yaradılış 22-ci fəsildə İbrahimin Allah tərəfindən sınağa çəkildiyi vaxt Ondan qorxduğunu və Ona güvəndiyini necə sübut etdiyindən danışın.

***İbrahim sınağa çəkildiyi vaxt iman vasitəsilə İshaqı qurban olaraq təqdim etdi. Vədlərə nail olmuş İbrahim bircə oğlunu qurban vermək niyyətində idi. Halbuki ona «İshaqdan törəyənlər sənin nəslin adlanacaq» deyilmişdi. O, Allahı onu ölülər arasından diriltməyə qadir saydı. Buna görə də məcazi mənada İshaqı ölümdən geri aldı. (İbranilərə 11:17-19)***

4. İbrahimin tarixçəsi, Allahın sadiq Allah olduğunu daha yaxşı anlamaqda sizə necə kömək edir?

## V. Yaqub

1. "Yaqub" adının mənası yadınızdadırmı? Yaqubun adının ona necə yaraşdığını öz sözlərinizlə danışın. (Yaradılış 25:29-34 və Yaradılış 27)
2. Allah Yaqubu həlimləşdirmək üçün dayısı Lavandan necə istifadə etdi? (Yaradılış 29:16-30; Yaradılış 30:25-36; və Yaradılış 31:6-7)
3. Allah Yaquba ata evindən uzaq olduğu illərdə necə sadaqətini göstərdi?
4. Allah Yaqubun həyatı üzərində səbirlə işlədikcə, xasiyyətində nə cür dəyişikliklər oldu? (Yaradılış 32:9-10; Yaradılış 33:18-20; Yaradılış 35:3)

   Allahın ona verdiyi yeni ad nə idi? (Yaradılış 32:28; Yaradılış 35:9)

***...Çünki sizdə fəaliyyət göstərən Allahdır, belə ki Onun xoş məramını həm istəyəsiniz, həm də bunun üçün fəaliyyət göstərəsiniz. (Filipililərə 2:13)***

## V. Yusif

1. Yusifin başına gələn ədalətsiz işlərdən bəzilərini qısaca danışın. (Yaradılış 37:23-28; Yaradılış 39:6-20; və Yaradılış 40:23 və 41:1)
2. Yusifin bizim üçün necə yaxşı nümunə olduğuna dair bir neçə misal gətirin. (Bax: Yaradılış 39:6-20; Yaradılış 45:4-8; və Yaradılış 50:15-21)

***Biz bilirik ki, hər şey birlikdə Allahı sevənlərin, Onun məqsədinə görə çağırılanların xeyrinə işləyir. (Romalılara 8:28)***

3. Yusifin həyatı yuxarıdakı ayə üçün necə yaxşı misal olur? (Yaradılış 45:4-8 və Yaradılış 50:15-21)
4. Yaradılış 15:13-14-də Rəbbin İbrahimə peyğəmbərlik edərək nəslinin 400 il Misirdə qərib olacağını xəbər verdiyini yada salın. Yaradılış 46:1-4-də Allah bu sözü təkrar etdi. O, bu peyğəmbərliyi yerinə yetirmək üçün Yusifin həyatını necə idarə etdi?

Allahın Kəlamını oxuyub öyrənməyə davam etdikcə görəcəksiniz ki:

- Allah vəd etdiyi kimi İbrahimin nəslindən böyük millət törədəcək.
- Onların dəfələrlə Allaha qarşı itaətsiz olmalarına baxmayaraq, Allah Özünün yollarını onlara öyrətmək üçün daima onlarla məşğul olacaq.
- Allah Öz xalqı vasitəsilə digər xalqlara da gücünü və izzətini göstərəcək.
- Allah xalqını Xilaskarın gəlişinə hazırlayır. Axırda, doğru bir zamanda Allah, bütün insanları günahlarından xilas etmək üçün Öz Oğlunu – İsa Məsihi göndərəcək.

İndi isə aşağıdakı sualları düşünmək və qrupda müzakirə etmək üçün bir neçə dəqiqə vaxt ayırın. Əgər bu dərsi təklikdə keçirsinizsə, fikirlərinizi bir dəftərə yazın.

**Yaradılış Kitabını oxuyub öyrəndiyiniz zaman sizdə ən böyük təəssürat yaradan nə idi?**

**Şəxsən siz bundan həyatınızı dəyişdirən hansı ibrət dərsləri götürmüsünüz?**

# Əlavə Dərslər

**Bu kitaba daxil olmayan, lakin ayrıca keçmək istəyə biləcəyiniz bir neçə əlavə dərsi aşağıda təqdim edirik.** Bu əlavə dərsləri təklikdə keçə bilərsiniz, yaxud öz qrupunuzda təşkil edə bilərsiniz. Bu dərsləri qrupda keçsəniz, digər dərslərdə tez-tez istifadə olunan suallardan istifadə edərək müzakirəni apara bilərsiniz. O suallar, ayələri diqqətlə nəzərdən keçirməyinizə və öyrəndiyiniz həqiqətləri bu dünyadakı həyatınıza necə tətbiq edə biləcəyinizi müzakirə etməyinizə kömək edəcək.

## İbrahimin və İshaqın Padşahlarla Münasibətləri

### *Yaradılış 12:10-20; Yaradılış 20; Yaradılış 26:6-11*

İbrahim bir neçə dəfə padşahlarla münasibətlərində yalana əl atmışdır. Arvadı Saraya "bacım" demişdir. Hər iki halda padşahın onun arvadını özünə arvad etməkdən ötrü onu öldürəcəyindən qorxmuşdu. Həqiqətdə isə padşahlar Saranı İbrahimin bacısı bilərək özlərinə arvad etmək istəmişdilər. İbrahim özünü qorumaq üçün yalana əl atır və bununla da Saranı çox çətin vəziyyətə qoyurdu. Rəbb Saranın təmizliyini qorumaq üçün müdaxilə etməyə məcbur idi.

Üstündən illər keçəndən sonra İshaq da atası kimi hərəkət etdi, Avimelek adlı başqa bir padşaha arvadı Rivqanın bacısı olduğunu söylədi. (Avimelek adının mənası "atam padşahdır". Çox güman ki, bu, şəxsi ad deyil, o günlərdə ümumiyyətlə "firon" kimi padşaha işarə edən titul idi). Allah yenə müdaxilə edərək Rivqanın təmizliyini qorudu. Yaradılış Kitabının müəllifi bildirir ki, padşahlar İbrahimi və İshaqı yalan danışdıqlarına görə danladılar.

Müqəddəs Kitabda peyğəmbərlərin, padşahların və sadə insanların – hər kəsin Allahın izzətindən məhrum olduğu təsdiq olunur. Hamının Allahın lütfü ilə xilas olmağa ehtiyacı var. Heç kim öz salehliyi ilə Allahın hüzurunda dura bilməz. Yalnız İsa Məsih Allahın önündə kamil həyat sürmüşdür. Bu dərslərdə biz İbrahimdən başlayan bir günahın – yalanın sonradan övladlarına da keçdiyini görürük. Bu cür yalan İbrahimin nəslində dəfələrlə çoxlu problemlərə səbəb olmuşdur. Bu bizə də aiddir. Adətlərimiz çox vaxt övladlarımıza keçir – onlar böyüyəndə bizim kimi hərəkət edirlər. Biz İsanın ardıcılları olaraq Allahın yollarını öyrənməli və köhnə adətlərimizi tərgitməliyik. Bu böyük imanlı adamlardan heç biri kamil deyil idi. Bununla belə, Allah Öz yollarını onlara öyrədir, onlarla əhd bağlamağa davam edirdi. Onlar da imanla Allah ilə yaşamağa davam edirdilər.

Mündəricat

## İbrahim və Lut

### *Yaradılış 13 və 14*

Bu iki fəsildə İbrahimlə qardaşı oğlu Lut arasında baş verən iki mühüm əhvalat nəql olunur. 13-cü fəsil, Lutun İbrahimdən ayrılıb münbit vadiyə yerləşdiyindən, İbrahimin isə o qədər münbit olmayan yuxarı ərazidə qaldığından bəhs edir. Luta cəlbedici görünən vadi, 14-cü fəsildə və daha sonra 7-ci dərsdə (Yaradılış 18-19) görəcəyiniz kimi, əslində yaşamaq üçün heç də yaxşı bir yer deyil idi. Yaradılış 14-cü fəsildə İbrahim öz qardaşı oğlunu, yaşadığı şəhərə hücum edən bir neçə padşahın əlindən xilas etməyə məcbur olur. Bu fəsilləri 7-ci dərsdən əvvəl oxuyub öyrənməyiniz, Lutun o vəziyyətə necə düşdüyünü başa düşməyinizə kömək edəcək. Bundan əlavə, bunu öyrənmək, həyatda asan yolu seçməyin heç də həmişə Allahın yolunda böyümək üçün yaxşı yol olmadığını başa düşməkdə sizə kömək edə bilər.

## İshaq Üçün Arvadın Tapılması

### *Yaradılış 24*

Bu çox təsiredici, romantik bir hekayədir! Yadınızdadır, Allah İbrahimi qohum-əqrəbasının torpağını tərk etməyə və ona göstərəcəyi yeni bir torpağa getməyə çağırmışdı. İbrahim Kənan torpağında məskunlaşmışdı. Lakin oğlunun kənanlı qadınlardan biri ilə evlənməsini istəmirdi. Odur ki, nökərini qohum-əqrəbasının torpağına, qardaşının evinə göndərdi və orada İshaq üçün arvad tapmasını tapşırdı. Bu gözəl hekayədə nökərin səyahət edərkən Allaha dua etdiyini, onu seçdiyi qıza yönəltməsini xahiş etdiyini oxuyuruq. Bu fəsil sizi, həyatınızda mühüm qərar vermək lazım olduqda Allahın məsləhətini axtarmağa təşviq edəcəkdir. Allahın sizi gözəl niyyətlərini həyata keçirə biləcəyiniz yollara yönəltməsi və həyatınıza xeyir-dua gətirməsi barədə Allaha güvənə biləcəyinizi anlayacaqsınız.

## Yəhuda Və Tamar

### *Yaradılış 38*

Yaradılış Kitabını öyrəndikcə görəcəksiniz ki, Allahın niyyətləri üçün istifadə etdiyi hər kəs Allahın salehlik yoluna uyğun hərəkət etməmişdir. Bəzi insanlar elə bilirlər ki, əxlaqsız davranışlar barədə olan əhvalatlar Müqəddəs Kitaba daxil olmamalıdır. Lakin Əhdi-Ətiqdə Allah insanları

olduqları kimi görməyimizə imkan verir. Allah yolunu tutan bir xalq yaratmaq üçün tarixdə fəal işləmiş və bunu bizim kimi adi insanlar vasitəsilə etmişdir. Allah hələ bu dünyada həm yaxşı, həm pis insanlar vasitəsilə işləyərək niyyətlərini həyata keçirir.

Bu fəsildə görürük ki, Yaqubun on iki oğullarından biri olan Yəhuda gəlinini aldadır, övlad sahibi olmaq hüququndan məhrum edir. O dövrdə yəhudi mədəniyyətində belə adət var idi: bir kişi övladı olmadan öləndə, qardaşı evli olsa belə, dul arvadını özünə arvad etməli və ona övlad verməli idi. Tamar dul qaldığı vaxt Yəhuda, kiçik oğlu böyüyəndə onu Tamarla evləndirəcəyinə dair söz vermişdi. Lakin aradan illər keçdikdən sonra Tamar, ərinin kiçik qardaşının onunla evlənmədiyini gördü və aldadıldığını anladı. Qayğısına qalacaq bir əri və ya oğlu olmayan Tamar himayəsiz qaldı.

Bu əhvalatda Yəhudanın xudbinliyini və özünü haqlı saydığını görürük. O, Tamarı təqsirləndirməyə tələsdi, öz günahını isə ifşa edilənə qədər etiraf etmədi. Lakin Allah Tamarın köməksiz vəziyyətdə olduğunu gördü və ona xeyir-dua verdi, belə ki əkiz oğlanları oldu. Bu pis vəziyyətə baxmayaraq, Yəhuda və əkiz oğlanlardan biri (Peres) İsa Məsihin nəsil şəcərəsində yer almışlar. (Bax: Matta 1:2-3 və Luka 3:33.)

Əhdi-Ətiqdə çox vaxt bir adamın hərəkətlərinin düzgün və ya səhv olduğu barədə müəllifin fikri bildirilmir. Buna görə də biz bu haqda mühakimə yürüdərkən bütün Müqəddəs Kitabı və yazıldığı dövrün mədəniyyətini nəzərə almalıyıq. Əlbəttə, bu əhvalatda heç də hər şey Allahın istədiyi kimi olmayıb. Lakin Allahın Tamara mərhəmət göstərdiyini görürük. Çünki Allah himayəsizlərin himayəçisi olacağını demişdir.